HÜSEYN CAVİD • Biblioqrafiya

*Azərbaycanın görkəmli şəxsiyyətləri*



# HÜSEYN CAVİD

Biblioqrafiya

Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

Azərbaycan
Milli Kitabxanası

*Azərbaycanın görkəmli şəxsiyyətləri*

# HÜSEYN CAVİD

**(Hüseyn Abdulla oğlu Rasizadə)**

***Biblioqrafiya***

**BAKI – 2022**

**KBT Я19:Ш+Ш5(2=Аз)7-4.4я1**
**UOT 016:821.512.162**

**Tərtib edən:** **Mətanət İbrahimova**

**Elmi redaktor:** **Kərim Tahirov,**
*Professor, Əməkdar mədəniyyət işçisi*

**Ön sözün müəllifi:** **İsa Həbibbəyli,**
*Akademik, Əməkdar elm xadimi*

**Redaktor:** **Aygün Koçak**

**Hüseyn Cavid** (Hüseyn Abdulla oğlu Rasizadə): biblioqrafiya /Tərt. ed. M.İbrahimova; elmi. red. K.Tahirov; Ön söz. müəl. İ.Həbibbəyli; red. A.Koçak.– Bakı, 2022.– 756 s.

Azərbaycan Milli Kitabxanasının "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından hazırladığı növbəti biblioqrafiya Azərbaycan ədəbiyyatı tarixində romantizm ədəbi cərəyanının ən qüdrətli nümayəndələrindən biri, filosof-şair, böyük dramaturq Hüseyn Cavidə həsr edilmişdir. Biblioqrafiyada şairin əsərləri, həyat və yaradıcılığı, ictimai fəaliyyəti haqqında zəngin məlumat toplanmışdır. Vəsaitdə Hüseyn Cavidin həyat və yaradıcılığının əsas tarixləri, ədəbi qeydləri və qələm dostları haqqında düşüncələri, eləcə də görkəmli şəxsiyyətlərin onun haqqında fikirləri öz əksini tapmışdır.

Biblioqrafiya ədəbiyyatşünas alimlər, tədqiqatçılar, kitabxanaçı-biblioqraflar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

ISBN 978 9952 554 32 8

**© Azərbaycan Milli Kitabxanası, 2022**

Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

Azərbaycan
Milli Kitabxanası

*Prominent personalities of Azerbaijan*

# HUSEYN JAVID

**(Huseyn Abdulla oglu Rasizadeh)**

***Bibliography***

**BAKU – 2022**

**UDC Я19:Ш+Ш5(2=Аз)7-4.4я1**
**LBC 016:821.512.162**

**Compiled by:** **Metanet Ibrahimova**

**Scientific editor:** **Karim Tahirov**
*Professor, Honored Cultural worker*

**Author of the foreword:** **Isa Hebibbeyli,**
*Academician, Honored Scientist*

**Editor:** **Aygun Kochak**

**Huseyn Javid** (Huseyn Abdulla oglu Rasizadeh): bibliography /compiled by: M.Ibrahimova; scientific ed.: K.Tahirov; auth. of the for.: I.Hebibbeyli; ed. A.Kochak.– Baku, 2022.– 756 p.

The next bibliography prepared by the National Library of Azerbaijan from the series "Prominent personalities of Azerbaijan" is dedicated to Huseyn Javid, one of the most powerful representatives of the romantic literary trend in the history of Azerbaijani literature, philosopher-poet, great dramatist. The bibliography contains a wealth of information about the poet's works, life and creativity, and social activities. The document contains the main dates of Huseyn Javid's life and work, his literary notes and thoughts about his pen pals, as well as the opinions of prominent personalities about him.

The bibliography is intended for literary scholars, researchers, librarian-bibliographers and a wide range of readers.

ISBN 978 9952 554 32 8

**© Azerbaijan National Library, 2022**

Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

Azərbaycan
Milli Kitabxanası

*Выдающиеся деятели Азербайджана*

# ГУСЕЙН ДЖАВИД

**(Гусейн Абдулла оглы Расизаде)**

***Библиография***

**БАКУ – 2022**

**ББК Я19:Ш+Ш5(2=Аз)7-4.4я1**
**УДК 016:821.512.162**

**Составитель:** **Матанат Ибрагимова**

**Научный редактор:** **Керим Тахиров,**
*Профессор, Заслуженный работник культуры*

**Автор предисловия:** **Иса Габиббейли**,
*Академик, Заслуженный деятель науки*

**Редактор:** **Айгюн Коджак**

**Гусейн Джавид** (Гусейн Абдулла оглы Расизаде): библиография /Сост. М.Ибрагимова; науч. ред. К.Тахиров; авт. предисл. И.Габиббейли; ред. А.Коджак.– Баку, 2022.– 756 с.

Подготовленная Азербайджанской Национальной Библиотекой в серии «Выдающиеся личности Азербайджана» посвящена одному из крупнейших представителей романтизма в азербайджанской литературе, поэту-философу, выдающемуся драматургу, Шекспиру Востока - Гусейну Джавиду. В библиографии представлены произведения поэта, обширные материалы о его жизни, творчестве и общественной деятельности. В пособии отражены основные даты жизни и творчества Гусейна Джавида, его литературные заметки и размышления о собратьях по перу, а также высказывания выдающихся личностей о нем.

Библиография предназначена для ученых-литературоведов, исследователей, библиотекарей-библиографов и широкой читательской аудитории.

ISBN 978 9952 554 32 8

**©Национальная Библиотека Азербайджана, 2022**

# Hüseyn Cavidin 140 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2022-ci ildə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, mütəfəkkir şair və dramaturq Hüseyn Cavidin (Hüseyn Abdulla oğlu Rasizadənin) anadan olmasının 140 ili tamam olur.

Hüseyn Cavid fəlsəfi müdrikliyin və bədii kamilliyin ahəngdar vəhdətini dolğun təcəssüm etdirən yaradıcılığı ilə Azərbaycan ədəbiyyatı tarixinə işıqlı səhifələr yazmışdır. O, bütün ədəbi fəaliyyəti boyu həqiqəti, insanpərvərliyi və gözəlliyi tərənnüm etmişdir. Şərq poetik fikri zəminində yüksələn və dünya romantizm ənənələrindən uğurla bəhrələnən filosof-şair Azərbaycan poeziyasında fəlsəfi lirikanın dəyərli nümunələrini meydana gətirmişdir. Qüdrətli sənətkar humanist ideallar uğrunda mübarizəyə səsləyən mənzum faciələri və tarixi dramları ilə Azərbaycan dramaturgiyasında yeni mərhələnin təməlini qoymuşdur. Parlaq xarakterlərlə zəngin olub, bir neçə nəslin estetik zövqünü formalaşdıran və ölkəmizdə teatr mədəniyyətinə yeni nailiyyətlər qazandıran bu dramaturgiya milli teatr salnaməsində “Cavid teatrı” kimi özünəməxsus layiqli yer tutur. Cavid irsi Azərbaycan ədəbiyyatının qızıl fonduna həmişəlik daxil olmuşdur.

Hüseyn Cavid sovet rejiminin ən sərt təzyiqləri şəraitində belə, mənən sarsılmayaraq şəxsiyyətinin bütövlüyünü ləyaqətlə qorumuşdur. Ulu öndər Heydər Əliyevin şəxsi təşəbbüsü ilə Cavidin nəşinin 40 il öncə uzaq Sibirdən vətəninə gətirilməsi və məzarı üzərində məqbərənin ucaldılması adı sovet totalitarizminin günahsız qurbanlarının rəmzinə çevrilmiş sənətkarın və 1930-cu illərdə repressiyalara uğramış Azərbaycan ziyalılarının xatirəsinə ehtiramın ifadəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32–ci bəndini rəhbər tutaraq, Azərbaycan ədəbi-bədii fikrinin inkişafında müstəsna rol

oynamış böyük söz ustası Hüseyn Cavidin anadan olmasının 140-cı ildönümünün qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə mütəfəkkir şair və dramaturq Hüseyn Cavidin 140 illiyinə dair tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 24 sentyabr 2022-ci il

## Decree of the President of the Republic of Azerbaijan on celebrating the 140th anniversary of Huseyn Javid

In 2022, it will be 140 years since the birth of Huseyn Javid (Huseyn son of Abdulla Rasizaden), a prominent representative of Azerbaijani literature, an intellectual, a poet and a dramatist.

Huseyn Javid has written bright pages in the history of Azerbaijani literature with his creativity, which fully embodies the harmonious unity of philosophical wisdom and artistic perfection. Throughout his literary career he has glorified truth, humanity and beauty. The philosopher-poet, who rose on the basis of Eastern poetic thought and successfully benefited from world romantic traditions, created valuable examples of philosophical lyrics in Azerbaijani poetry. The powerful artist laid the foundation of a new stage in Azerbaijani drama with his verse tragedies and historical dramas, which call for the struggle for humanist ideals. Rich in bright characters, shaping the aesthetic taste of several generations and bringing new achievements to the theater culture in our country, this dramaturgy occupies a unique and worthy place in the annals of the national theater as "Javid Theater". Javid's legacy has entered the golden fund of Azerbaijani literature eternally.

Huseyn Javid, even under the harshest pressures of the Soviet regime, did not waver and protected the integrity of his personality with dignity. On the personal initiative of the great leader Heydar Aliyev, Javid's body was brought to his homeland from distant Siberia 40 years ago and a mausoleum was erected over his grave.

Guided by paragraph 32 of Article 109 of the Constitution of the Republic of Azerbaijan, I decide to ensure the celebration of the 140th anniversary of the birth of the great master of words Huseyn Javid, who played an exceptional role in the development of literary and artistic thought of Azerbaijan:

1. The Ministry of Culture of the Republic of Azerbaijan together with the

Azerbaijan National Academy of Sciences should prepare and implement the event plan for the 140th anniversary of the thinker poet and dramatist Huseyn Javid.

2. The Cabinet of Ministers of the Republic of Azerbaijan should resolve the issues arising from this Order.

**Ilham Aliyev,**
President of the Republic of Azerbaijan
Baku city, September 24, 2022

## Распоряжение Президента Азербайджанской Республики О проведении 140-летия Гусейна Джавида

В 2022 году исполняется 140 лет со дня рождения выдающегося представителя азербайджанской литературы, поэта-мыслителя и драматурга Гусейна Джавида (Гусейна Абдулла оглу Расизаде).

Своим творчеством, всецело олицетворяющим единство философской мудрости и художественного совершенства, Гусейн Джавид вписал яркие страницы в историю азербайджанской литературы. На протяжении всей своей литературной деятельности он воспевал истину, человеколюбие и красоту. Возвысившийся на почве восточной поэтической мысли и успешно использовавший мировые традиции романтизма, поэт-философ создал ценные образцы философской лирики в азербайджанской поэзии.

Своими стихотворными трагедиями и историческими драмами, призывающими к борьбе за гуманистические идеалы выдающийся мастер слова заложил основу нового этапа в азербайджанской драматургии. Богатая яркими образами эта драматургия, которая формировала эстетический вкус нескольких поколений и принесла новые достижения театральной культуре нашей страны, занимает в летописи национального театра присущее ей достойное место, как театр Джавида. Наследие Джавида навсегда вошло в золотой фонд азербайджанской литературы.

Даже в условиях жесточайшего давления советского режима Гусейн Джавид не был морально сломлен и достойно сохранил целостность личности. 40 лет назад прах Джавида по личной инициативе великого лидера Гейдара Алиева был перевезен из далекой Сибири на родину, а на его могиле возведен мавзолей, что служит выражением почтения к памяти корифея, имя которого стало символом невинных жертв советского

тоталитаризма, и азербайджанской интеллигенции, подвергшейся репрессиям 1930-х годов.

Руководствуясь пунктом 32 статьи 109 Конституции Азербайджанской Республики, в целях обеспечения проведения 140-й годовщины со дня рождения выдающегося мастера слова Гусейна Джавида, которому принадлежит исключительная роль в развитии азербайджанской литературно-художественной мысли, постановляю:

1.Министерству культуры Азербайджанской Республики совместно с Национальной Академией наук Азербайджана подготовить и осуществить план мероприятий в связи с 140-летием поэта-мыслителя и драматурга Гусейна Джавида.

2.Кабинету Министров Азербайджанской Республики решить вопросы, вытекающие из настоящего Распоряжения.

**Ильхам Алиев,**
Президент Азербайджанской Республики
город Баку, 24 сентября 2022 года

# Biblioqrafiya haqqında

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, filosof-şair, böyük dramaturq Hüseyn Cavid ədəbiyyat tarixində öncül yerlərdən birini tutur. Azərbaycan ədəbiyyatının inkişafında müstəsna xidmətləri olan H.Cavid sənətdə heç kimə bənzəməyən, orijinal bir yaradıcılıq yolu keçmiş və özündən sonra ölməz əsərlər qoyub getmiş söz ustasıdır. Bütün yaradıcılığı boyu xeyirlə şəri qarşılaşdıran və ümumbəşəri xeyrin qələbəsinə öz sənətkar töhfəsini verən H.Cavidin bu il 140 illiyi tamam olur. Bu məqsədlə Azərbaycan Milli Kitabxanası "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından biblioqrafiya hazırlamağı qərara almışdır.

Görkəmli şair haqqında ilk biblioqrafiya (Hüseyn Cavid: həyat və sənət yolu: biblioqrafik göstərici /red. G.Babaxanova; A.Əliyeva-Kəngərli; tərt. N.Əsədullayeva [və b.]; AMEA Hüseyn Cavidin Ev Muzeyi; AMEA Mərkəzi Elmi Kitabxana.– Bakı: Elm, 2005.– 242 s.) 2005-ci ildə çap olunmuşdur.

Milli Kitabxananın hazırladığı biblioqrafik göstərici 1904-2022-ci illəri əhatə etməklə daha da təkmilləşdirilmiş, ədibin xarici dillərdə və dünyanın aparıcı kitabxanalarında mühafizə olunan əsərləri və haqqında ədəbiyyatın biblioqrafik təsvirləri də vəsaitə daxil edilmişdir.

Biblioqrafiyada Hüseyn Cavidin kitabları, dərsliklərdə, məcmuələrdə, dövri mətbuatda çap olunmuş əsərləri, həyat və yaradıcılığını əks etdirən ədəbiyyat öz əksini tapmışdır. Materiallar Azərbaycan, rus və başqa dillər üzrə, xronoloji qaydada qruplaşdırılmış, xronoloji çərçivə daxilində isə əlifba sırası gözlənilmişdir.

Hüseyn Cavidin dünyanın ən zəngin kitabxanalarında mühafizə olunan nəşrləri "Hüseyn Cavid dünya kitabxanalarında" və "Hüseyn Cavid dünya universitet kitabxanalarında" bölmələrində öz əksini tapmışdır.

Biblioqrafiyadan istifadəni asanlaşdırmaq məqsədilə sonda şairin əsərlərinin, haqqında əsərlərin və müəlliflərin əlifba göstəriciləri tərtib olunmuşdur.

Biblioqrafiya ədəbiyyatşünas alimlər, tədqiqatçılar, kitabxanaçı-biblioqaflar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Göstərici haqqında rəy və təkliflərini bildirən mütəxəssislərə və oxuculara əvvəlcədən minnətdarlığımızı bildirərək, təklif və rəylərini M.F.Axundov adına Milli Kitabxanaya göndərmələrini xahiş edirik.

**Ünvan:** AZ–1000, Bakı şəh., Xaqani küç. 57.
**E-mail:** contact@anl.az

## About the bibliography

An outstanding representative of Azerbaijani literature, philosopher-poet, great dramatist Huseyn Javid occupies one of the leading places in the history of literature. H.Javid, who has exceptional services in the development of Azerbaijani literature, is a master of words who is unlike anyone else in art, who has gone through an original creative path and left immortal works behind him. This year marks the 140th anniversary of H.Javid, who confronted good and evil throughout his creativity and made his artistic contribution to the victory of universal good. For this purpose, the National Library of Azerbaijan has decided to prepare a bibliography from the "Prominent personalities of Azerbaijan" series.

The first bibliography about the famous poet (Huseyn Javid: life and artistic path: bibliographic index /ed. G.Babakhanova; A.Aliyeva-Kangerli; comp. N.Asadullayeva [etc.]; Huseyn Javid House Museum of ANAS; Central Scientific Library of ANAS.- Baku: Elm, 2005.- 242 p.) was published in 2005.

The bibliographic index prepared by the National Library has been further improved by covering the years 1904-2022, and bibliographic descriptions of the literary works of the writer preserved in foreign languages and in the world's leading libraries have also been included.

The bibliography includes Huseyn Javid's books, works published in textbooks, collections, periodicals, literature reflecting his life and creativity. The materials are grouped chronologically in Azerbaijani, Russian and other languages, and alphabetical order is expected within the chronological framework.

Huseyn Javid's publications preserved in the world's richest libraries are reflected in the "Huseyn Javid world libraries" and "Huseyn Javid world university libraries" sections.

In order to facilitate the use of the bibliography, at the end, alphabetical indices of the poet's works, works about him, and the authors were compiled.

The bibliography is intended for literary scholars, researchers, librarian-bibliographers and a wide readership.

Expressing our gratitude in advance to the experts and readers who expressed their opinions and suggestions about the indicator, we ask them to send their suggestions and opinions to the National Library named after M.F.Akhundov.

**Address:** AZ–1000, Baku city, Khagani street. 57.
**E-mail:** contact@anl.az

# О библиографии

Один из крупнейших представителей азербайджанской литературы, поэт-философ, выдающийся драматург, Шекспир Востока –Гусейн Джавид по праву занимает особое место в истории литературы. Заслуги Гусейна Джавида перед азербайджанской литературой – исключительные! Его творчество отличается оригинальным, не имеющим аналогов стилем, и мудростью философской мысли. Можно с уверенностью сказать, что Гусейн Джавид оставил после себя бессмертные произведения, элегантные по форме и глубокие по содержанию. В этом году исполняется 140 лет со дня рождения Мастера Слова, противопоставлявшего на протяжении всего своего творческого пути Добро и Зло, и внесшего неоценимый художественный вклад в победу общечеловеческого Добра. В связи с этим в Азербайджанской Национальной Библиотеке в серии «Выдающиеся личности Азербайджана» была подготовлена библиография «Гусейн Джавид».

Первая библиография о поэте была издана в 2005 году (Гусейн Джавид: жизнь и творческий путь: библиографический указатель /ред.Г.Бабаханова; А.Алиева-Кенгерли; сост. Н.Асадул-лаева [и др.]; НАНА Дом-музей Гусейна Джавида; Центральная Научная Библиотека НАНА.– Баку: Элм, 2005.– 242 с.).

Новый усовершенствованный библиографический указатель, подготовленный Азербайджанской Национальной Библиотекой охватывает 1904-2022 годы и содержит библиографические описания хранящихся в библиотеках мира произведений писателя на иностранных языках и литературы о Гусейне Джавиде.

В библиографии отражены книги Гусейна Джавида, его произведения, опубликованные в различных сборниках, периодической печати, а также литература о его жизни и творчестве. Материалы на азербайджанском, русском и других языках представлена в хронологическом порядке, внутри же разделов соблюдается алфавитный порядок.

Издания произведений Гусейна Джавида, хранящиеся в самых крупных библотеках мира представлены в разделах «Гусейн Джавид в библиотеках мира» и «Гусейн Джавид в библиотеках университетов мира».

Для облегчения работы с библиографией в конце ее представлен алфавитный указатель произведений писателя, произведений о нем и авторов.

Библиография предназначена для ученых-литературоведов, исследователей, библиотекарей-библиографов и широкой читательской аудитории.

Заранее выражаем читателям благодарность за высказанные замеания и предложения и просим направлять их по адресу Национальной Библиотеки им. М.Ф.Ахундова.

**Адрес:** AZ–1000, город Баку, ул. Хагани, 57.
**E-mail:** contact@anl.az.

# ƏDƏBİYYATIN ƏBƏDİYYƏT RƏMZİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xüsusi Sərəncamı ilə görkəmli romantik şair və dramaturq Hüseyn Cavidin anadan olmasının 140 illiyi ölkəmizdə yüksək səviyyədə və geniş şəkildə qeyd olunur. Möhtərəm Prezidentimizin Sərəncamında deyildiyi kimi, “filosof-şair Hüseyn Cavid Azərbaycan poeziyasında fəlsəfi lirikanın dəyərli nümunələrini meydana gətirmiş, humanist ideyalar uğrunda mübarizəyə səsləyən mənzum faciələri və tarixi dramları ilə Azərbaycan dramaturgiyasında yeni mərhələnin təməlini qoymuşdur”. Həqiqətən də XX əsrin əvvəllərində Cəlil Məmmədquluzadə “Molla Nəsrəddin” ədəbi məktəbinin, Mirzə Ələkbər Sabir satirik şeir məktəbinin əsasını qoyduğu kimi, Üzeyir Hacıbəylinin ilk Azərbaycan operasını səhnəyə çıxarması səviyyəsində Hüseyn Cavid də Azərbaycan ədəbiyyatında romantik şeirin, mənzum romantik dramaturgiyanın və nəhayət, romantizm ədəbi cərəyanının banisi olaraq qəbul edilir. Bu mənada Hüseyn Cavidin çoxcəhətli və zəngin yaradıcılığı çoxəsrlik Azərbaycan ədəbiyyatı tarixində yeni və mühüm bir mərhələ təşkil edir.

Məlum olduğu kimi, Azərbaycan ədəbiyyatında romantik poeziya əsasən qədim dövr və orta əsrlərdə inkişaf etmiş, özünün böyük ənənələrini və qüdrətli korifeylərini yetişdirmişdir. Lakin Azərbaycan klassik şeiri nümunələrinə XVII-XIX əsrlərdə o qədər nəzirə və bənzətmələr yazılmışdır ki, poeziya həmin epiqon ədəbiyyatın təsiri altında olmuş və inkişaf edə bilməmişdir. Buna görə də Mirzə Fətəli Axundzadə bütövlükdə ədəbiyyatı, xüsusən də şeiri klassik romantik lirika ənənəsinin “əsarətindən” xilas etmək üçün nəzirə ədəbiyyatına qarşı mübarizə aparmış və hətta daha çox təsir dairəsinə malik olan orta əsr Azərbaycan lirikasının böyük ustadı Məhəmməd Füzulinin xidmətlərini inkar edərək, onu “nazimi ustad” adlandırmağa məcbur olmuşdur. Beləliklə, Hüseyn Cavidin yaradıcılığa başladığı XIX əsrin axırları və XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatında artıq bir əsr idi ki, romantik şeir dövrü arxada qalmışdı. Artıq Qasım bəy Zakirin və Seyid Əzim Şirvaninin realist üslubda yazılmış şeirləri meydan oxumaqda idi. Buna baxmayaraq, Hüseyn Cavid Naxçıvan şəhərindəki “Tərbiyə” məktəbinin şagirdi ikən müəllimi, böyük maarifçi şair Məhəmməd Tağı Sidqinin təsiri ilə klassik lirika üslubunda şeirlər yazmağa başlamışdır. Və hətta Məhəmməd Tağı Sidqi “Gülçin” təxəllüsü ilə

klassik üslubda şeirlər yazan şagirdinin ilk qələm təcrübələrini yüksək qiymətləndirərək demişdir: “Mən atan Molla Abdullanın yerinə olsaydım və Gülçin kimi bir şair oğlum olsaydı, rövzəxanlığı buraxıb, xanəndəlik edərdim və həmişə Racinin yox, öz oğlumun şeirlərini oxuyardım”.

XX əsrin əvvəllərində baş vermiş böyük ictimai-siyasi hadisələr Azərbaycan ədəbiyyatında bütün istiqamətlər üzrə Abbas Səhhətin sözləri ilə desək, “təzə səpkidə” yeniləşmə hərəkatına geniş yol açmışdır. Bu baxımdan, təzə əsrin ibtidasında Azərbaycan ədəbiyyatında gerçəkliyi fəsahət və bəlağətlə və...xəyalati-mühəyyicə ilə (xəyallardan düzəldilmiş fikirlərlə) tərənnüm edən romantik şeir də yenidən dirçəlmiş və daha da inkişaf etmişdir. Hüseyn Cavidin lirikası da bu zəmində XX əsrin əvvəlləri Azərbaycan romantik şeirinin mühüm ədəbi hadisəsi kimi meydana çıxmışdır. Görkəmli romantik şair böyük ədəbi ənənəsi olan Azərbaycan romantik şeirini yeni mövzular, milli və bəşəri ideyalarla daha da zənginləşdirmiş və poetik forma baxımından şeirdə bır sıra islahatları həyata keçirmişdir. Əvvəla, o, Azərbaycan poeziyasında ilk dəfə olaraq klassik lirikadakı qəzəl-qəsidə janrlarındakı beytlərlə xalq-aşıq şeirindəki bəndlərin növbələşməsi əsasında yeni tipli şeirlər yazmışdır. İkincisi, Hüseyn Cavid əruz vəzni ilə heca vəzninin müştərək iştirakı ilə fərqli şeirlər yaratmışdır. Novator şair hətta əruz vəzninin çoxəsrlik Azərbaycan poeziyasında işlədilməmiş yeni bir formasını yaratmağa nail olmuşdur ki, məşhur əruzşünas alim Əkrəm Cəfər bunu “Cavid həcəzi” adlandırmışdır. Bundan başqa, Hüseyn Cavid özünə qədər Azərbaycan poeziyasında heca vəzninin az müraciət edilmiş on ikilik, on üçlük, on dördlük, on beşlik, on altılıq kimi çoxhecalı şəbəkəsini yaratmışdır. Hüseyn Cavidin lirik qəhrəmanı da klassik lirikada şəbi-hicran odunda şam kimi əriyib yanan pərvanələr deyil, zavallı öksüz ənvərlər, sahibsiz kiçik sərsərilər, fəryadları qəlbləri titrədən solğun mənəkşələr idi. Cavid şeirinin lirik qəhrəmanları XX əsrin əvvəlləri Azərbaycan tənqidi realist ədəbiyyatındakı Noruzəlilərin, usta Zeynalların, bir sözlə, kiçik adamların romantik lirikadakı bacı-qardaşları idilər. Lakin “kiçik adam”ları tənqid etməklə ayıltmaq istəyən mollanəsrəddinçilərdən fərqli olaraq, Hüseyn Cavid və digər Azərbaycan romantikləri "atiq adam" kimi atılmış bu zavalı insanların yanıqlı taleyini, ümidlərini düşüncələrini və xəyal dünyasını tərənnüm etməklə onları cəmiyyətin diqqət mərkəzinə çəkmək məqsədini izləmişlər.

Hüseyn Cavid çoxəsrlik Azərbaycan şeirini yeni janrlarla daha da zənginləşdirmişdir. Böyük şair ilk dəfə olaraq XX əsrin əvvəlləri Azərbaycan poeziya Qərb şeiri üçün səciyyəvi olan sonet janrını gətirmişdir. Cavid əfəndinin “Mən istərim ki”, “Çəkinmə, gül” şeirləri italyan soneti formasında,

"Hər yer səfalı, nəşəli" və "Qəmər" şeirləri isə ingilis soneti şəklində yazılmışdır. Hüseyn Cavid XX əsrin əvvəllərində "İbtilayi-qəram" şeiri ilə Azərbaycan şeirində quyruqlu sonetin də ilk nümunəsini yaratmışdır. Onun "Neçin" şeirində sonet əklili şeir formasının əlamətləri müşahidə olunur. Ən əhəmiyyətlisi isə ondan ibarətdir ki, Hüseyn Cavid "Bu gecə" şeirində Avropa sonetlərindəki 4 misralı katrenləri 5 misralı bəndlərə, Qərb standartlarındakı 3 misradan ibarət olan tersetləri 4 misradan təşkil edilən bənd şəklinə çevirməklə sonet janrının Azərbaycan variantını meydana qoymuşdur. Bu yolla poeziyamızda böyük ənənəsi olan müxəmməslərlə qoşma janrının bənd sistemi əsasında milli Azərbaycan soneti modeli yaradılmışdır. Hüseyn Cavidin "Bu gecə" şeiri Azərbaycan sonetinin ilk modelinə çox təəssüf ki hələ də yeganə nümunədir:

Dərin-dərin uçurumlar, vərəmli fırtınalar,
Bütün-bütün sıqıb əzməkdə ruhumu bu gecə.
Səninlə, ah, sənin yadi-həsrətinlə yanar,
Yanar, səni anarım, dilbərim! Fəqət səncə,
Bu bir həyati-müxəyyəl, həzin bir əyləncə...

***

Gözəl mələk! Gecələr daima səmayə baqar,
Qəmərdən, ah... o soluq çöhrədən səni sorarım.
Onun ziyayi-rəqiqilə həp uçar, qalqar,
Arar, bulur, səni dinlər kədərli duyğularım,
Kəsik təranələrim, həp zəhərli qayğılarım.
Bütün cahan uyuyor, kainat həp dalğın...
Məgər xəyali-bəidinlə ruhi-məcruhum,
Qəmərdə birləşərək pək acıqlı, pək çılğın
Bir iştiyaq ilə giryandır, ey mənim ruhum!

***

Sizin üfüqdə qəmər böylə, pəkmi nazlı doğar?
Nədən cəbini-lətifin səhabəpuşi-hicab!?
Hərimi-nazinə pərvaz edən şüai-nəzər,
Qalır zülami-təhəyyürdə münkəsir, bitab...

Hüseyn Cavid eyni zamanda yeni dövr Azərbaycan romantik lirikasında marş janrının da ilk yaradıcısıdır. Ümumiyyətlə, himn və marş janrları, o

cümlədən də Hüseyn Cavidin marşları XX əsrin əvvəllərində baş vermiş böyük siyasi hadisələrin təsiri ilə meydana çıxmış çağırışları ifadə edən şeirlər kimi yaranmışdır. Hüseyn Cavid özü də 1917-ci ildə yazdığı "Şeyda" pyesində əsərin əsas obrazlarından olan Raufun dili ilə Bakı mətbəə fəhlələrinin çağırışları kimi səsləndirilmiş səfərbərlik ruhu şeiri "Marselyozu andıran gurultulu və həyəcanlı marş" adlandırmışdır. "Şeyda" pyesində verilmiş "Mürəttiblər marşı" Azərbaycan şeiri tarixində, marş janrında yaradılmış ilk şeirdir:

Yaş zindanlar yuvamız,
Fəlakət aşinamız:
Ordular yıxan qurşun,
Olmuş bizim qidamız.

***

Arkadaş, göz aç, aman!
Qalx ölüm uyqusundan!
Zülmə çox əydin boyun,
Çox əzildin, qalx, oyan!

XX əsrin əvvəllərində şərqilərin və türkü janrında yazılmış şeirləri də ilk müəlliflərindən biri Hüseyn Caviddir. Bu janrlarda meydana çıxmış şeirlər daha çox Hüseyn Cavidin dram əsərlərində əsərin bədii-emosional səviyyəsini artırmağa xidmət etmiş, bəzən isə obrazların ərzi-halını ifadə edən mahnı kimi səsləndirilmişdir. Bütün bunlara görə Hüseyn Cavid Azərbaycan romantik şeirini XX əsrin əvvəllərində yenidən canlandırmış və yüksək inkişaf mərhələsinə çatdırmış novator şairdir. Bundan başqa, o, Azərbaycan romantik şeirində fəlsəfi lirikanın da əsas yaradıcılarından biridir.

Azərbaycan ədəbiyyatında romantik mənzum faciə janrının yaranması və inkişafı da birbaşa Hüseyn Cavidin adı ilə bağlıdır. Hüseyn Cavidə qədər XIX əsrdə Azərbaycan ədəbiyyatında Mirzə Fətəli Axundzadə tərəfindən komediya janrında qiymətli ədəbi əsərlər yaradılmış, XX əsrin əvvəllərində dram sənətinə Cəlil Məmmədquluzadənin alleqorik dram və tragikomediyaları da əlavə olunmuşdur. Mərasim folklorundakı şəbih səhnəciklərini nəzərə almasaq, Hüseyn Caviddən əvvəl Azərbaycan ədəbiyyatında mənzum dram ənənəsi olmamışdır. Azərbaycan ədəbiyyatının çoxəsrlik inkişafı yolunda ilk dəfə olaraq Hüseyn Cavid möhtəşəm mənzum dramlar yaratmışdır. Hüseyn Cavidin əksər faciələri

və tarixi dramları mənzum olmaqla yanaşı, həm də romantik-fəlsəfi xarakterə malik dram əsərləri kimi də tam yeni hadisə idi. Doğrudur, Hüseyn Cavid "Maral", "Şeyda", "Topal Teymur", "İblisin intiqamı" kimi nəsrlə yazılmış dram əsərləri də XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatında dramaturgiyanın mövqelərini möhkəmləndirməyə uğurla xidmət göstərmişdir. Lakin Hüseyn Cavid qüdrətli bir sənəkar kimi Azərbaycan ədəbiyyatından möhtəşəm yeri onun "Şeyx Sənan", "İblis" və "Xəyyam" kimi mənzum dramları ilə müəyyən olunur. Adı çəkilən bu dram əsərləri Azərbaycan ədəbiyyatının şedevrləridir. Həmin dram əsərlərini dünya dillərinə mükəmməl surətdə tərcümə edərək, Qərb və ya Şərq ölkələrində tamaşaya qoymaqla dramaturgiyanın Azərbaycan brendini beynəlxalq səviyyədə təqdim etmək mümkündür.

Hüseyn Cavidin mənzum romantik dramları və faciələri böyük ideallar, xarakterlər və ehtiraslar dramaturgiyasıdır. "Hər qaranlıqla çırpınır bir nur, hər həqiqətdə bir xəyal uyuyur" yaxud "Ölüm var ki, həyat qədər dəyərli, həyat var ki, ölümdən də zəhərli" və ya "İblis nə demək? Cümlə xəyanətlərə bais, ya hər kəsə xain olan insan nədir? - İblis!", və yaxud "Məhəbbətdir ən böyük din" kimi çoxsaylı dərin fəlsəfi fikirlər Hüseyn Cavidin dramaturgiyasında səsləndirilən, bəşəri məzmuna və geniş müasirlik imkanlarına malik olan aforizmlərdir. Məhz Hüseyn Cavidin dramaturgiyası vasitəsilə ədəbiyyatımıza Şeyx Sənan və Xumar, Cəlal və Göyərçin, İblis və Arif, Səyavuş və Rüstəm kimi bir-birindən fərqli romantik xarakterə malik olan bənzərsiz insanların, Teymur, İldırım Bəyazid, Xəyyam kimi ədəbi-tarixi şəxsiyyətlərin surətləri gətirilmişdir.

XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatında romantizm ədəbi cərəyanının yaradılması və inkişafında Hüseyn Cavidin müstəsna xidmətləri vardır. Hüseyn Cavid müasirləri olmuş digər görkəmli romantik yazıçı və şairlər: Əli bəy Hüseynzadə, Məhəmməd Hadi, Abbas Səhhət, Abdulla Şaiq və başqaları ilə birlikdə romantik ədəbiyyat cəbhəsində ardıcıl olaraq çalışmaqla romantizm ədəbi cərəyanının formalaşmasında çox fəal və yaxından iştirak etmişdir. Doğrudur, Azərbaycan ədəbiyyatında romantizm ədəbi cərəyanı əsasən ilkin olaraq Əli bəy Hüseynzadənin "Füyuzat" jurnalının bazasında formalaşmışdır. Lakin məlum olduğu kimi, 1906-cı ildə fəaliyyətə başlayan "Füyuzat" jurnalı cəmi bir ildən sonra, yəni 1 noyabr 1907-ci ildə bağlanmış və jurnalın baş redaktoru Əli bəy Hüseynzadə qısa bir müddətdə Bakıda maarifçilik fəaliyyəti ilə məşğul olmuş və 1909-cu ildə Türkiyəyə köçməli olmuşdur. Digər görkəmli romantik şair Məhəmməd Hadi də XX əsrin əvvəllərində bir müddət Türkiyədə mətbuat sahəsində çalışmış, I Dünya müharibəsi cəbhələrində Azərbaycandan

kənarda fəaliyyət göstərmişdir. Şamaxıda yaşayan Abbas Səhhət və Bakıda çalışan Abdulla Şaiq isə həm realist və həm də hər iki istiqamətdə yazıb yaratdıqları və əsasən maarif cəbhəsində çalışdıqları üçün ədəbiyyatın bu istiqamətdəki inkişafına ciddi təsir göstərmək imkanlarına malik deyildilər. Hüseyn Cavid isə 1905-ci ildə İstanbul Universitetinin Ədəbiyyat fakültəsini bitirib, vətənə qayıtdıqdan sonra Azərbaycan ədəbiyyatının əsas inkişaf mərkəzlərindən olan Bakıda, Tiflisdə, Naxçıvanda və Gəncədə yaşayıb-yaratmış, ölkə mətbuatında ardıcıl olaraq şeirlərlə çıxış etmiş, şeir kitablarını nəşr etdirmiş, dram əsərlərini səhnədə göstərmiş və böyük maraqla qarşılanmışdır. Bütün bunlara görə romantizmin ədəbi cərəyan kimi "Füyuzat" jurnalı zəminində ədəbi cərəyan kimi ilkin formalaşması dövründən sonrakı inkişafında Hüseyn Cavidin xüsusi xidmətləri olmuşdur. O, XX əsrin əvvəllərində müasirləri ilə birgə geniş əlaqə şəraitində yazıb-yaratmış, romantik ədəbiyyata gətirdiyi yeni mövzular və ideyalarla, fərqli janrlar və obrazlarla ədəbi mühitə daha fəal təsir göstərmişdir. Beləliklə, Hüseyn Cavid Azərbaycan ədəbiyyatında romantizm ədəbi cərəyanının əsas yaradıcısı missiyasını yerinə yetirmişdir. Buna görə də digər Azərbaycan romantiklərinin də xidmətlərini yüksək qiymətləndirməklə bərabər, deyə bilərik ki, Hüseyn Cavid Azərbaycan ədəbiyyatında romantizm ədəbi cərəyanının əsaslarını yaratmış və bu ədəbi cərəyanın banisi və yaradıcısı olmuşdur.

Azərbaycan ədəbiyyatında romantizmin estetikası və poetikası romantik müasirləri arasında ən geniş və sistemli şəkildə Hüseyn Cavidin yaradıcılığında öz əksini tapmışdır. Azərbaycan romantizminin ideya əsaslarının yaradılmasında, ədəbi istiqamətlərinin müəyyən edilməsində, romantik şeirin poetik formalarının yeniləşdirilməsi və zənginləşdirilməsində Hüseyn Cavidin xüsusi xidmətləri vardır. Fikrimizcə, Hüseyn Cavidin çoxcəhətli yaradıcılığı olmadan Azərbaycan ədəbiyyatında romantizmin ədəbi cərəyan səviyyəsinə çatdırılması çətin ki, mümkün ola bilərdi. Yeni Azərbaycan romantikləri ədəbi nəsli daha çox Hüseyn Cavidin bütöv parlaq şəxsiyyətinin və böyük sənətinin zəminində formalaşmışdır. Hüseyn Cavid Azərbaycan romantizminin formalaşdırılması və inkişafında əsas ədəbi fiqurdur. Hüseyn Cavid ölməz əsərləri ilə Azərbaycan ədəbiyyatında romantizm ədəbi cərəyanının əsas ideya-estetik, milli-ədəbi və ictimai-bəşəri dəyərlərini yaratmış, inkişaf etdirmiş, romantik sənətin bənzərsiz poetikasını meydana qoymuşdur. Sonrakı dövrlərdə də Azərbaycan ədəbiyyatında romantik ənənənin yaradılması və yaradıcı şəkildə davam etdirilməsi Hüseyn Cavidin adı ilə bağlı olan ənənələrlə üzvi surətdə əlaqədardır. Azərbay-

can ədəbiyyatında romantizm dedikdə ilk növbədə Hüseyn Cavid yada düşür. Hüseyn Cavidin adı ədəbiyyatda romantizm ədəbi cərəyanı məfhumu ilə sinonimdir. Azərbaycan ədəbiyyatında XX əsrin əvvəllərindən başlayıb bizim günlərə qədər davam edən romantik şeir və mənzum dram ənənələrinin inkişaf etdirilməsində Hüseyn Cavidin müstəsna xidmətləri xüsusi ehtiramla qeyd edilməyə layiqdir.

Hüseyn Cavidin dram əsərləri XX əsrin əvvəllərindən etibarən Azərbaycan teatrlarında uğurla tamaşaya qoyulmuşdur. İndi də ölkəmizin teatrları Hüseyn Cavidin dramaturji irsinə ardıcıl olaraq müraciət edirlər. Ölkəmizdə cəmisi bir neçə görkəmli sənətkarın adı ilə bağlı teatr məktəbləri yaranmışdır ki, onlardan biri də Mirzə Fətəli Axundzadə, Cəlil Məmmədquluzadə, Səməd Vurğun, İlyas Əfəndiyev teatrı ilə yanaşı, həm də Hüseyn Cavid teatrıdır. Görkəmli teatrşünas, professor Cəfər Cəfərovun sözləri ilə desək, Hüseyn Cavid Azərbaycan teatrının tarixində "özünəməxsus xüsusiyyətlərə, fərqli estetik prinsiplərə əsaslanan bir teatr, bir səhnə sənəti bir səhnə üslubu", daha açıq desək, milli romantik məktəbini yaratmışdır. Hüseyn Cavid Azərbaycanda romantik teatr məktəbinin banisidir.

Yeni dövr Azərbaycan romantik ədəbiyyatının böyük korifeyi Hüseyn Cavidin ədəbiyyatın və ictimai fikrimizin inkişafındakı rolu və xidmətləri Azərbaycan dövləti tərəfindən yüksək qiymətləndirilmişdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Hüseyn Cavidin ölməz sənətinə yüksək qiymət vermiş və qüdrətli sənətkarın adının ədəbiləşdirilməsi sahəsində tarixi xidmətlər göstərmişdir. Azərbaycan KP Mərkəzi Komitəsinin 1981-ci ildə Hüseyn Cavidin anadan olmasının 100 illiyinin dövlət səviyyəsində qeyd olunması ilə əlaqədar qərar qəbul etməsi əsassız yerə repressiya qurbanı olmuş və yalnız 1957-ci ildə günahsız hesab edilmiş Hüseyn Cavidə verilmiş həqiqi siyasi bəraətin ifadəsidir. "Hüseyn Cavidin anadan olmasının 100 illiyi haqqında"kı qərarındakı aşağıdakı müddəalar böyük mütəfəkkir sənətkarın ölməz sənətinə dövlət səviyyəsində bəslənilən yüksək münasibəti diqqətə çatdırır: "Hüseyn Cavidin tarixi, aşiqanə-fəlsəfi mövzularda yazılmış ... pyesləri nəinki Azərbaycan, həm də bütün çoxmillətli sovet mədəniyyətinin inciləridir. Bu əsərlərdə ... romantik yazıçının yüksək humanist idealları, əfsanəvi qəhrəmanların, şairlərin və mütəfəkkirlərin həyatsevərliyi və azadfikirliyi dərin əksini tapmışdır. Hüseyn Cavid obrazları səhnə mədəniyyəti xadimlərinin bütöv bir nəsli üçün məktəb olmuşdur. Hüseyn Cavidin incə lirizm və dərin psixolo-

gizmlə, humanizm və beynəlmiləlçiliklə aşılanmış əsərləri Azərbaycan ədəbiyyatının qızıl fonduna daxil olmuşdur".

Eyni zamanda, görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi və iştirakı ilə 1982-ci ildə Hüseyn Cavidin nəşinin uzaq Sibirin repressiya qurbanları qəbiristanlığından Azərbaycana gətirilməsi sovet hakimiyyəti dövründə əlçatmaz bir əfsanənin həyata keçirilməsinin real təntənəsi olan misilsiz siyasi-tarixi hadisədir. Bu baxımdan Hüseyn Cavidin anadan olmasının 140 illik yubileyinin qeyd edilməsinin "Heydər Əliyev İli"nə təsadüə edilməsi tamamilə qanunauyğun olub, dahi sənətkarın siyasi-ədəbi taleyində məhz ulu öndərlə başlanmış böyük ənənənin müasir şəraitdə müasir şəraitdəki davamı kimi səslənir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Hüseyn Cavidin anadan olmasının 140 illiyinin qeyd edilməsi haqqındakı 24 sentyabr 2022-ci il tarixli Sərəncamı xalqımızın böyük sənətkarına müstəqil dövlətimizin verdiyi yüksək dəyərin əməli ifadəsidir. Sərəncamda böyük mütəfəkkir sənətkarın böyük sənəti və parlaq şəxsiyyətinin mahiyyəti və əhəmiyyəti bütün reallıqları və özünəməxsusluqları ilə obyektiv mövqedən qiymətləndirilir: "Hüseyn Cavid fəlsəfi müdrikliyin və bədii kamilliyin ahəngdar vəhdətini dolğun təcəssüm etdirən yaradıcılığı ilə Azərbaycan ədəbiyyatı tarixinə işıqlı səhifələr yazmışdır. O, bütün ədəbi fəaliyyəti boyu həqiqəti, insanpərvərliyi və gözəlliyi tərənnüm etmişdir. Şərq poetik fikri zəminində yüksələn və dünya romantizm ənənələrindən uğurla bəhrələnən filosof-şair Azərbaycan poeziyasında fəlsəfi lirikanın dəyərli nümunələrini meydana gətirmişdir. Qüdrətli sənətkar humanist ideallar uğrunda mübarizəyə səsləyən mənzum faciələri və tarixi dramları ilə Azərbaycan dramaturgiyasında yeni mərhələnin təməlini qoymuşdur.

...Hüseyn Cavid sovet rejiminin ən sərt təzyiqləri şəraitində belə mənən sarsılmayaraq şəxsiyyətinin bütövlüyünü ləyaqətlə qorumuşdur. Ulu öndər Heydər Əliyevin şəxsi təşəbbüsü ilə Cavidin nəşinin 40 il öncə uzaq Sibirdən vətəninə gətirilməsi və məzarı üzərində məqbərənin ucaldılması adı sovet totalitarizminin günahsız qurbanlarının" rəmzinə çevrilmiş sənətkarın və ...Repressiyalara uğramış Azərbaycan ziyalılarının xatirəsinə ehtiramın ifadəsidir.

İndi Hüseyn Cavidin yubileyi dahi şair-dramaturqun arzu etdiyi müstəqil Azərbaycan dövlətində və onun özünün ərazi bütövlüyünə qovuşmuş və inkişaf etmiş azad vətənində qeyd olunur.

Hüseyn Cavid vaxtilə şeirlərindən birində doğma vətəninə yüksək münasibətini aşağıdakı kimi mənalandırmışdır:

Deyir göydə baxçalar var,
Orda çiçəklər nur saçar,
İnsan mələk kimi uçar,
İstəməm, masaldır onlar.
Mən vuruldum yalnız sana,
Vətən, ah sevgili ana!

Bu gün Hüseyn Cavidin ölməz adı da, böyük sənəti də doğma vətənində sevilir, öyrənilir və yüksək qiymətləndirilir.

Hüseyn Cavid Azərbaycan ədəbiyyatının dünya ədəbiyyatındakı daimi nümayəndəsidir.

Hüseyn Cavid sənəti ədəbiyyatın əbədiyyət rəmzidir.

**İsa HƏBİBBƏYLİ,**
*AMEA-nın prezidenti, akademik*

## Həyat və yaradıcılığının əsas tarixləri

***Hüseyn Abdulla oğlu Rasizadə (Cavid) 1882-ci il oktyabrın 24-də Naxçıvan şəhərində anadan olmuşdur.***

| | |
|---|---|
| **1891-1894** | – İbtidai təhsilini Naxçıvan şəhərində mollaxanada almışdır. |
| **1894-1898** | – Naxçıvanda rus-tatar (Məhəmməd Tağı Sidqinin açdığı “Məktəbi-tərbiyə”) məktəbinə getmişdir. |
| **1899-1903** | – Təbrizdə “Talibiyyə” mədrəsəsində təhsil almışdır. |
| **1904** | – Gözlərində ağrılar olduğundan təhsilini dayandırmış və ticarətlə məşğul olmuşdur;<br>– Təbrizdən Urmiyaya getmiş, oradan isə Gürcüstana gedərək Kaxetiya ərazisində şose yolu çəkən idarədə işləmişdir;<br>– Mətbuatda məqalələri dərc olunmağa başlamışdır. |
| **1905** | – Atasının tanıdığı ticarət şirkəti ilə şərik olub şirkətin İstanbulda olan şöbəsinə göndərilmişdir;<br>– Şirkətin Təbriz və Tiflis şöbələri iflas olduğundan ticarətdən əl çəkmiş, gözlərini müalicə etdirərək İstanbul Universitetinin Ədəbiyyat şöbəsinə daxil olmuşdur. |
| **1906** | – “Salik” təxəllüsü ilə ilk şeiri “İrşad” qəzetində nəşr olunmuşdur. |
| **1907** | – Mart ayının 19-da İstanbulda “Siratül müstəqim” qəzetində “Qafqazlı Hüseyn Cavid Rasizadə” imzası ilə “Yadi mazi” (“Keçmişin anılması”) şeiri çap edilmişdir;<br>– İstanbulda “Vərəmli qız” şeiri müsabiqədə mükafata layiq görülmüşdür. |

| | |
|---|---|
| **1909** | – Təhsilini bitirib Naxçıvana qayıtmışdır;<br>– Maarifpərvər Q.Şərifzadəyə yazdığı məktubunu "Hüseyn Cavid Rasizadə" kimi imzalamış, beləliklə "Cavid" təxəllüsünü seçmişdir;<br>– May ayının 14-də "İttifaq" qəzeti "Son bahar" şerini çap etmişdir. |
| **1910** | – İlk dram əsəri olan və Dağıstan həyatından alınmış "Ana" mənzum faciəsini yazmışdır;<br>– Abdulla Tofiqin təşəbbüsü ilə bir müddət Gəncədə açılmış ruhani məktəbində müəllim işləmişdir. |
| **1912** | – Gəncə dəmir yolunda mühasiblik etmişdir;<br>– "Maral" pyesini qələmə almışdır;<br>– Yanvar-iyul aylarında Ü.Hacıbəyovun redaktoru olduğu "Həqiqət" qəzeti ilə əməkdaşlıq etmişdir. |
| **1913** | – "Ana" mənzum pyesi Tiflisdə "Gürcü şirkəti" mətbəəsində çap edilmişdir;<br>– Tiflisdə "Aliyev uçeniye" məktəbində müəllimlik etmişdir;<br>– "Keçmiş günlər" adlı ilk şeir kitabı Tiflisdə "Şərq" mətbəəsində çapdan çıxmışdır. |
| **1914** | – "Bahar şəbnəmləri" şeirlər toplusu "İqbal" qəzetində hissə-hissə nəşr olunmuşdur;<br>– "Şeyx Sənan" əsərini qələmə almışdır;<br>– Tiflisdə "İttifaq" məktəbində müəllim işləmişdir. |
| **1915-1916** | – Bakıda "Səfa" məktəbində müəllim işləmişdir;<br>– Bakı mətbəə işçilərinin həyatından bəhs edən "Şeyda" pyesini qələmə almışdır. |
| **1917** | – Bakıda təşkil olunmuş Ədəbiyyat Komissiyasına üzv seçilmişdir;<br>– "Bahar şəbnəmləri" və "Maral" faciəsi Bakıda çap olunmuşdur; |

| | |
|---|---|
| | – “Şeyx Sənan” və “Şeyda” əsərləri “Açıq söz” qəzetinin mətbəəsində çap olunmuşdur. |
| **1917-1919** | – “Uçurum” faciəsini yazmışdır. |
| **1918** | – Erməni daşnaklarının Bakıya hücumu ilə əlaqədar olaraq Bakıdan Təbrizə getmişdir;<br>– Erməni quldurlarının Təbriz mehmanxanasına basqını zamanı tutulmuş, təsadüf nəticəsində oradan qaça bilmiş, Naxçıvana gedərək “Rüşdiyyə” məktəbində müəllim işləmişdir;<br>– Oktyabr ayının 28-də “Bəsirət” qəzetində Cavidin Naxçıvanda vəfat etməsi haqqında məlumat çap edilmişdir;<br>– Noyabr ayının 14-də Azərbaycan qəzeti ölüm xəbərinin doğru olmadığı haqqında material dərc etmişdir;<br>– “İblis” faciəsini yazmışdır;<br>– “Maral” faciəsi Baxçasarayda tələbələr tərəfindən hazırlanıb, Krımın bir neçə şəhərində tamaşaya qoyulmuşdur;<br>– Mişkinaz xanımla (Molla Hüseyn qızı) ailə qurmuşdur. |
| **1919** | – Bakıya köçərək hazırlıq kursunda ədəbiyyatdan dərs demiş, bir müddət qız məktəbində şəriət müəllimi işləmişdir;<br>– May ayında Müəllimlər İttifaqının iclasında idarə heyətinə üzv seçilmişdir;<br>– İyul ayında Azərbaycan Müəllimlər Konfransında təlifat (nəşriyyat) heyətinə seçilmişdir;<br>– Məktəblərdə tədris edilməsi üçün “Ədəbiyyat dərsləri” adlı kitabı (Abdulla Şaiqlə birgə) nəşr edilmişdir;<br>– Oktyabrın 22-də oğlu Ərtoğrol Rasizadə anadan olmuşdur (Bakı). |
| **1920-1937** | – Bakı Müəllimlər Seminariyasında müəllim işləmişdir;<br>– “Azər” dastanını yazmışdır. |
| **1920** | – Bakıda Təzəpir məhəlləsində Hüseyn Cavid adına Xeyriyyə Cəmiyyəti fəaliyyət göstərmişdir; |

– Mart ayının 15-də "Yaşıl qələm" dərnəyinin ümumi iclasında cəmiyyətin nizamnaməsini hazırlayan komissiyaya üzv seçilmişdir;
– Aprel ayında "Uçurum" əsəri mətbuatda hissə-hissədə dərc olunmuşdur;
– Oktyabr ayında "İblis" və "Maral" pyesləri Aşqabadda tamaşaya qoyulmuşdur;
– Noyabr ayında "İblis" əsərinin ilk variantı mətbuatda dərc olunmuşdur;
– Dekabr ayının 21-də "İblis" əsəri ilk dəfə Dövlət Teatrında (indiki Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı) tamaşaya qoyulmuşdur.

**1921** – "İblis" faciəsi üçün H.Cavidin müəlliflik hüququ təyin edilmiş, ona mükafat olaraq 150 min rubl verilməsi qərara alınmışdır;
– Avqust ayında "Tənqid-təbliğ" Teatrının repertuar komissiyasına üzv seçilmişdir;
– Noyabr ayının 11-də "Şeyx Sənan" əsəri Dövlət Teatrında (indiki Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı) ilk dəfə səhnəyə qoyulmuşdur;
– Dekabr ayında "Afət" əsəri mətbuatda hissə-hissə çap edilmişdir;
– Dekabr ayının 30-da Darülfünün binasında çağırılmış müşavirədə yeni əlifbaya keçmək barədə məsələ qaldırılmış, komissiyaya H.Cavid sədr seçilmişdir.

**1922** – Mart ayının 27-də N.Nərimanovun təşəbbüsü ilə ikinci dərəcəli 3, 4, 7-ci məktəblərin müəllim və tələbələri tərəfindən "Cavid gecəsi" keçirilmişdir;
– Aprel ayının 14-də "Afət" əsəri ilk dəfə Dövlət Dram Teatrında səhnəyə qoyulmuşdur;
– Aprel ayının 20-də Bakının Təzəpir məhəlləsi sakinlərinin ümumi iclasında "Məşhur Azərbaycan şairi Hüseyn Cavid ocağı" adlı təşkilat yaradılmışdır;

– İyun ayının 2-də “Uçurum”, dekabrın 15-də “Şeyda” əsəri ilk dəfə Dadaş Bünyadzadə adına Hökümət Teatrında (indiki Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı) oynanılmışdır;
– “Peyğəmbər” mənzum dramını yazmışdır.

**1923** – “Peyğəmbər” əsəri Azərbaycan Xalq Maarif Komissarlığı tərəfindən çap olunmuşdur;
– İyun ayında Azərbaycan yazıçı, ədib və şairlərinin təşkilat komissiyasına üzv seçilmişdir;
– Avqust ayında Azərbaycan Ədib və Şairlər Dərnəyinə üzv seçilmişdir;
– Oktyabrın 2-də qızı Turan Cavid anadan olmuşdur (Bakı).

**1924** – Bakıdakı II dərəcəli 16-cı qız məktəbinə H.Cavidin adı verilmişdir;
– “İblis” faciəsi ilk dəfə kitab şəklində çap edilmişdir;
– Mart ayının 12-də bəstəkar M.Maqomayev “İblis” əsərinin mətni əsasında opera yazmağa başlamışdır;
– Oktyabr ayının 16-da Kommunist qəzeti “İblis” əsərinin müzakirəsinə xüsusi səhifə həsr etmişdir.

**1925** – “Topal Teymur” tarixi dramını yazmış, “Şeyda” pyesi nəşr olunmuşdur;
– Fevral ayında Bakıda keçirilən I Türkoloji qurultayda iştirak etmişdir.

**1926** – “Azər” poemasına daxil olan bəzi şeirlər mətbuatda hissə-hissə dərc olunmuşdur;
– Azərbaycan Xalq Maarif Komissarlığının 8 mart tarixli iclasında ədibin gözlərini müalicə etdirmək məqsədilə Berlinə göndərilməsi qərara alınmış, 7 ay orada yaşamışdır;
– Almaniyadan qayıtdıqdan sonra Bakı Teatr Texnikumunda Azərbaycan ədəbiyyatından dərs deməyə başlamışdır;

| | |
|---|---|
| | – "Topal Teymur", "Şeyx Sənan" və "Uçurum" əsərləri Azərnəşr tərəfindən çap olunmuşdur;<br>– Noyabr ayının 15-də "Topal Teymur" əsəri ilk dəfə Dadaş Bünyadzadə adına Azərbaycan Dram Teatrında (indiki Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı) tamaşaya qoyulmuşdur. |
| **1927** | – Noyabr ayının 2-də Xalq Komissarları Şurasının göstərişi ilə H.Cavidə 1200 manat fərdi təqaüd verilməsi haqqında qərar qəbul olunmuşdur. |
| **1928** | – "Şeyx Sənan" əsəri ilk dəfə Təbriz Teatrında tamaşaya qoyulmuşdur;<br>– "Azər" poemasını tamamlamışdır;<br>– Bakı Sovetinin Plenumunda iştirak etmişdir. |
| **1928-1929** | – "Knyaz" mənzum faciəsini yazmışdır. |
| **1929** | – Yeni əlifba komitəsinin konfransında iştirak etmişdir;<br>– Gürcüstan və Azərbaycan yazıçılarının Bakıda keçirilmiş ədəbi-bədii tədbirində iştirak etmişdir;<br>– İyun ayında Zaqafqaziya Şura Yazıçıları və İncəsənət Xadimləri Birliyinin Təşkilat Komissiyasına üzv seçilmişdir. |
| **1930** | – Mart ayında Tiflis Dövlət Qırmızı Ordu Teatrında "Knyaz" pyesi ilk dəfə tamaşaya qoyulmuşdur;<br>– Aprel ayının 1-də "Knyaz" pyesi ilk dəfə Türk Bədaye Teatrında (indiki Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı) tamaşaya qoyulmuşdur;<br>– Cənubi Azərbaycan həyatından bəhs edən "Telli saz" dramını və "Kor neyzən" poemasını yazmışdır. |
| **1932** | – Firdovsinin 1000 illik yubileyinə həsr etdiyi "Səyavuş" faciəsini yazmışdır. |
| **1933** | – Yanvar ayında "Səyavuş" əsərindən bir hissə mətbuatda dərc olunmuşdur; |

– Aprel ayında Azərbaycan Şura Yazıçıları İttifaqının Təşkilat Komissiyasına seçilmiş və I plenumunda iştirak etmişdir.

**1934** – "Səyavuş" əsəri "Azərnəşr"də çap olunmuşdur;
– Mart ayında "Səyavuş" əsəri ilk dəfə Məşədi Əzizbəyov adına Azərbaycan Dram Teatrında (indiki Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı) tamaşaya qoyulmuşdur.

**1934-1935** – "Xəyyam" və "Şəhla" əsərlərini yazmışdır.

**1935** – Oktyabr ayında Şura Yazıçıları İttifaqı dramaturqlarının iclasında iştirak etmişdir;
– Dekabr ayında Zaqafqaziya dramaturqlarının Bakı müşavirəsində iştirak etmişdir;
– Pedaqoji İnstitutda (indiki Azərbaycan Dövlət Pedaqoji Universiteti) keçirilən ədəbi konfransda iştirak etmişdir;
– Dekabr ayının 9-da Respublikanın 15 illiyi münasibətilə elan edilmiş ədəbi əsərlər müsabiqəsində "Xəyyam" pyesi üçüncü mükafata layiq görülmüşdür.

**1936** – Moskva, Leninqrad (indiki Sankt-Peterburq) və Minskdə keçirilən Azərbaycan poeziya və dramı günlərində iştirak etmişdir;
– Aprel ayında "Səyavuş" pyesinin 100-cü tamaşası göstərilmişdir;
– "İblisin intiqamı" əsərini yazmışdır.

**1937** – "Koroğlu" kinossenarisini yazmışdır;
– İyun ayının 3-də H.Cavidə Azərbaycan K(b)P-nın 13-cü qurultayında "Gizli millətçi əksinqilabi təşkilat"da iştirak ittihamı irəli sürülmüşdür;
– İyun ayının 4-də həbs olunmuşdur;
– İyun ayının 12-də Yazıçılar İttifaqından xaric olunmuşdur.

| | |
|---|---|
| **1937-1939** | – Keşlə və Bayıl həbsxanalarında dustaq olmuşdur. |
| **1939** | – İyun ayının 9-da Antisovet təşkilatında və təbliğatında iştirakına görə 8 il müddətinə islah-əmək müəssisəsinə sürgün edilməsi haqqında qərar verilmişdir;<br>– İyul ayının 4-də Sibirə sürgün olunmuşdur. |
| **1941** | – Dekabr ayının 5-də İrkutsk vilayətinin Tayşet rayonunun Şevçenko qəsəbəsində 59 yaşında vəfat etmişdir. |
| **1948** | – Mart ayının 31-də ölümü haqqında şəhadətnamə ailəsinə göndərilmişdir. |
| **1956** | – Mart ayının 6-da Azərbaycan SSR Ali Məhkəməsinin hökmünə görə H.Cavidə bəraət verilmişdir. |
| **1957** | – Turan Cavid İrəvanda "Xəyyam" əsərinin üzü köçürülmüş əlyazmasını əldə etmişdir. |
| **1958** | – "Seçilmiş əsərləri" M.Arif, M.Rahim və M.C.Cəfərovun redaktəsilə "Azərnəşr"də çap olunmuşdur. |
| **1961** | – Məmməd Cəfər Cəfərov filologiya elmləri doktoru alimlik dərəcəsi almaq üçün "Hüseyn Cavid və 1905-1917-ci illərdə Azərbaycan ədəbiyyatında romantizm:" mövzusunda dissertasiyasını müdafiə etmişdir (Azərbaycan SSR EA Nizami adına Ədəbiyyat və Dil İnstitutu) |
| **1962** | – 80 illik yubileyi qeyd olunmuşdur. |
| **1963** | – Yaşar Qarayev filoloji elmlər namizədi alimlik dərəcəsi almaq üçün içində Hüseyn Cavidin "Şeyx Sənan", "İblis", "Maral", "Uçurum", "Afət" əsərlərinin də təhli olunduğu "Azərbaycan dramaturgiyasında faciə janrı" mövzusunda dissertasiyasını müdafiə etmişdir (S.M.Kirov adına Azərbaycan Dövlət Universiteti). |

– 22 октября состоялась организованная домом-музеем Гусейна Джавида международная научная конференция под названием: «Творчество Гусейна Джавида в ракурсе современного мышления»;

– Был опубликовано 10-томное издание научных исследований «Джавидоведение»;

– Произведение «Шейда» было опубликовано на 10-ти языках;

– “Были опубликованы книги: альбом песен «На слова Гусейна Джавида» (1 выпуск), «Светочи тюркского мира: М.Акиф Эрсой и Гусейн Джавид», «Гусейн Джавид: поиски идеальной правды», «Гейдар Алиев и Гусейн Джавид»;

– В честь 130-летия со дня рождения Гусейна Джавида была выпущена почтовая марка;

– Чинара Рзаева защитила в Нахчыванском филиале НАНА диссертацию на соискание доктора философии по филологии по теме: «Лексика языка произведений Гусейна Джавида»;

– Малахат Бабаева защитила в Институте Литературы им.Низами НАНА диссертацию на соискание степени доктора философии по филологии по теме: «Художественные образы исторических личностей в драмах Гусейна Джавида».

**2013** – В Монтенегро, в «Королевском парке» города Подгорица был открыт бюст писателя;

– Сахиба Мамедова защитила в Институте Литературы им.Низами НАНА диссертацию на соискание степени доктора философии по филологии по теме: «История и современность в творчестве Гусейна Джавида»;

– Севиндж Зейналова защитила в Азербайджанском Институте Языков защитила диссертацию на соискание степени доктора филологических наук по теме: «Западная тема в азербайджанской литературе (воплощение западных образов и проблема воздействия западных литературно-эстетических ценностей): на

основе произведений М.Ф.Ахундова, Ю.В.Чемензе-минли, А.Гусейнзаде и Г.Джавида»;
– В издательстве «Шарг-Гарб» было опубликовано переработанное пятитомное издание «Произведений» Гусейна Джавида;
– Пьеса «Шейда» была опубликована в бакинском издательстве «Прогресс» на болгарском языке. Автор перевода: С.Шигаева. Публикация была осуществлена по инициативе Дома-музея Гусейна Джавида и Бакинского Славянского Университета.

**2014** – Пьеса «Пророк» была переведена на фарси поэтом и ученым Акпером Хамиди Альяром;
– В первом номере 5-го тома международного журнала «Язык и литература», вышедшего в феврале 2014 года была опубликована статья профессора Массачусетского университета Амхерст Одри Л.Альтштадта «Гусейн Джавид и Союз Азербайджанских Писателей» («Husein Javid and The Writers Union of Azerbaijan»);
– В издательстве «Тахсил» по инициативе Министерства Культуры были опубликованы «Избранные произведения» Гусейна Джавида на русском языке (Сост., автор предисловия и редактор - Эльчин).

**2015** – Дом-музей Гусейна Джавида в Нахчыване был переименован в « Дом-музей и Мемориальный Комплекс Гусейна Джавида»;https://az.wikipedia.org/wiki/H%C3%BCseyn_Cavidin_ev-muzeyi_v%C9%99_xatir%C9%99_kompleksi - cite_note-kaspi-2
– 23 октября в честь 133-летия со дня рождения выдающегося драматурга в Доме-музее Гусейна Джавида при НАНА состоялась республиканская научная конференция на тему «Роль творчества Гусейна Джавида в воспитании молодого поколения»;
– Шакир Джафаров в Азербайджанском Государственном Педагогическом Университете защитил

диссертацию на соискание степени доктора философии по филологии «Женские образы в творчестве Гусейна Джавида».

**2016** – Кораблю, курсирующему под азербайджанским флагом, было присвоено имя Гусейна Джавида;

– 18 октября состоялась республиканская научная конференция на тему: «Гусейн Джавид и современная молодежь». Мероприятие, организованное Институтом Литературы им.Низами Гянджеви НАНА совместно с Домом-музеем Гусейна Джавида, было приурочено к 25-летию восстановления независимости Азербайджана и 134-й годовщине со дня рождения Гусейна Джавида;

– Кинокомпанией TRT Avaz в серии «Вершины тюркского мира» был снят документальный фильм «Жизнь писателя Гусейна Джавида»;

– Саадат Джахангирзаде защитила в БГУ диссертацию на соискание степени доктора философии по филологии по теме: «Человеческая концепция в творчестве Гусейна Джавида (с 1920 года по наши дни)».

**2017** – 23 октября состоялась международная научная конференция на тему: «Гусейн Джавид и современная молодежь». Мероприятие, организованное Институтом Литературы им.Низами Гянджеви НАНА совместно с Домом-музеем Гусейна Джавида, было приурочено к 135-й годовщине со дня рождения Гусейна Джавида;

– 24 октября Президент Азербайджана Ильхам Алиев подписал распоряжение «О праздновании 135-летнего юбилея Гусейна Джавида»;

– Были изданы: 2-й выпуск песенного альбома «На слова Гусейна Джавида», а также искусно оформленный календарь-фотоальбом;

– Отделом Гуманитарных Наук и Отделом Общественных Наук при Президиуме НАНА совместно с Домом-музеем Гусейна Джавида была организована

международная научная конференция «Идеалы и современность в творчестве Гусейна Джавида»;
– Был выпущен песенный альбом «На слова Гусейна Джавида»;
– В столице Болгарии – Софии состоялась конференция, посвященная 135-летию со дня рождения писателя;
– Гюльнара Алиева защитила в БСУ диссертацию на соискание степени доктора философии по филологии по теме: «Проблемы гуманизма в творчестве Ф.М.Достоевского и Г.Джавида»;
– Пьеса «Марал» в переводе на болгарский язык была опубликована в бакинском издательстве «Мутарджим» отдельной книгой. Авторы перевода: М.Шопов и Ж.Николова. Книга была издана по инициативе Дома-музея Гусейна Джавида, Софийского Университета им. Преподобного Климента Орхидского и БСУ.

**2018** – 7 мая в Доме-музее Гусейна Джавида при НАНА состоялась научная сессия на тему: «Гейдар Алиев: Творчество Гусейна Джавида – национальное достояние азербайджанского народа». Мероприятие было приурочено к 95-летию Общенационального лидера Гейдара Алиева;
– В американском журнале «Origins» в переводе на английский язык было опубликовано стихотворение Гусейна Джавида «Беженец»(«Refugee»). Авторы перевода – житель Америки Мурад Джалилов и преподаватель Государственного Университета Эмпория, профессор Кевин Рабас;
– Был издан календарь, отражающий основные вехи жизни семьи Джавида;
– Были изданы XI-XX тома изысканий «Джавидоведение»;
– Был издан нотный сборник: «На слова Гусейна Джавида»;

– 1 марта в Азербайджанском Государственном Экономическом Университете, а 25 апреля - в Азербайджанском Университете Языков состоялась научная конференция на тему: «Наследие Гусейна Джавида и современность». Мероприятия были приурочены к 135-летию со дня рождения Гусейна Джавида;
– В октябре в Стамбуле состоялось торжественное открытие бюста Гусейна Джавида (автор: азербайджанский художник и скульптор Санан Эйнуллаев);
– Сона Велиева защитила в Институте Литературы им.Низами Гянджеви НАНА диссертацию на соискание степени доктора филологических наук на тему: «Поэтика литературного наследия Гусейна Джавида».

**2019** – Постановлением Кабинета Министров Азербайджанской Республики № 211 от 7 мая 2019 имя Гусейна Джавида было включено в список авторов, чьи произведения объявлены государственным достоянием;
– 15 апреля в Азербайджанском Университете Языков состоялась республиканская научная конференция под названием «Гусейн Джавид и всемирная литература».

**2020** – Были изданы XXI-XXX тома изысканий «Джавидоведение»;
– Трагедия «Пропасть» впервые была издана отдельной книгой;
– В издательстве «Элм и тахсил» на азербайджанском и английском языках была опубликована книга «Мудрость Джавида».

**2021** – В Доме-музее Гусейна Джавида был издан календарь, отражающий жизнь и творчество драматурга;
– В Нукусском Государственном Педагогическом Институте им.Аджинияза республики Каракалпакстан в составе Узбекистана состоялось открытие Центра

Азербайджанской Культуры и Литературы им. Гусейна Джавида;
– 29 октября в Доме-музее Гусейна Джавида состоялась республиканская научная конференция на тему: «Гусейн Джавид и современность» Мероприятие было посвящено 30-летию восстановлению государственности Азербайджана;
– 1 декабря в Доме-музее Гусейна Джавида состоялась научная сессия на тему: «Роль Гейдара Алиева в увековечении памяти Гусейна Джавида»;
– Севиль Гасанова защитила диссертацию на соискание степени доктора филологических наук по теме: «Литературно-художественное наследие Гусейна Джавида в азербайджанской периодической печати».

**2022** – В мае в здании Азербайджано-Американской Торговой Палаты в США был открыт барельеф Гусейна Джавида;
– 6 мая в Доме-музее Гусейна Джавида в Нахчыване состоялась научная сессия на тему: «Гейдар Алиев: Произведения Гусейна Джавида – национальное достояние азербайджанского народа». Мероприятие было приурочено к 99-летию со дня рождения Общенационального лидера Гейдара Алиева и 140-летию со дня рождения драматурга;
– На основании 5-го пункта указа №1769 от 28 июля 2022 года Президента Азербайджана Дом-музей Гусейна Джавида, наряду с другими музеями, действующими при НАНА, был вместе с имуществом передан в подчинение Министерства Культуры Азербайджанской Республики;
– 15-го сентября Министр Культуры Анар Керимов посетил музей.
– 24 сентября Президент Азербайджана Ильхам Алиев подписал распоряжение «О праздновании 140-летия Гусейна Джавида»;

– В Доме-музее Гусейна Джавида был выпущен календарь о жизни и творчестве великого поэта и драматурга;

– На канале Общественного Телерадиовещания был создан документальный фильм «Трудная миссия» ;

– В издательстве «ХАН» вышла в свет книга пьес «Князь и Шейда»;

– 17 октября в Институте Литературы им. Низами Гянджеви НАНА состоялась научная конференция, посвященная 140-летию со дня рождения Гусейна Джавида –Шекспира Востока;

– 23 октября в Нахчыванском Государственном Университете состоялись торжественные мероприятия и научная конференция. Мероприятия были организованы Фондом Знания при Председателе Верховного Совета Нахчыванской Автономной Республики, Нахчыванским Филиалом НАНА, высшими научными учреждениями и Союзом Писателей Азербайджана;

– 24 октября в Национальном Музее Азербайджанской Литературы им.Низами Гянджеви состоялась посвященная 140-летию со дня рождения Гусейна Джавида научная сессия на тему: «Поэт вечности». А в здании Президиума Академии Наук состоялась организованная Министерством Культуры и Институтом Литературы международная научная конференция на тему: «Искусство Гусейна Джавида: идеи и современность»;

– 25 октября Творческим Центром Азербайджанского Государственного Экономического Университета и по инициативе членов кружка Художественного чтения состоялся юбилейный торжественный вечер в честь 140-летия поэта;

– В честь 140-летия со дня рождения поэта в Азербайджанской Национальной Библиотеке были подготовлены: Электронно-информационная база «Аристократ духа и мысли азербайджанской литературы – Гусейн Джавид»; дайджест «Гусейн Джавид-

140», виртуальная выставка «Гусейн Джавид» и большая книжная выставка.

– В Азербайджанской Национальной Библиотеке им.М.Ф.Ахундзаде в серии «Выдающиеся личности Азербайджана» была издана фундаментальная библиография «Гусейн Джавид».

## Hüseyn Cavidin söz xəzinəsindən incilər

“...Ömür keçdikcə eşqin, sevdanın keçəcəyini də hər kəs söylər durur! Fəqət yalan!.. Həm də pək böyük bir yanlış... Bir şam yanıb əriyib də sönmək üzrə ikən nasıl bir nur saçarsa, iştə qoca bir gönül də eşqə, məhəbbətə qarşı o dərəcə böhranlı bir həqarət, xəyalə sığmaz bir şiddət göstərir.”

***

“Məhəbbət! Məhəbbət! əvət, bütün bəşəriyyəti xilas edəcək yalnız məhəbbətdir. Məhəbbətlə çırpınan bir çoban qəlbi, kin və ədavət püskürən bir sultan qafasından daha şərəflidir. Əgər dünyanın şanlı çarpışmaları, qanlı vuruşmaları nəticəsində bir məhəbbət, fövqəlbəşər bir məhəbbət doğurmayacaqsa... bütün həyata, bütün kainata nifrətlər olsun!”

***

Məni yalnız və yalnız yaradıcılıq məsələləri düşündürür. Yaratmaq, yaratmaq, yenə də yaratmaq istəyirəm. Bu sönməz eşq və həvəs hətarda çəkdiyim bütün çətinliklərə qarşı məndə qüvvət yaradır.

Kəssə hər kim dökülən qan izini,
Qurtaran dahi odur yer yüzünü!

***

Bu dünya çəkişib-çarçışma dünyasıdır. Təbii, o sizin qanınızı sorub sümürmək istər: fəqət sizdə də himmət olmalı, əldən gəldiyi qədər kəndinizi müdafiə etməlisiniz, yoqsa insaf, mərhəmət xülyaları ilə sürünəcək olsanız; nəticədə zillət və səfalətdən başqa bir şey bulamazsınız.

***

Aşiqlərin iztirabı, filosofların düşüncəsi, öksüzlərin göküs keçirməsi, kimsəsizlərin göz yaşı, yıldızların səfvəti, qürubun məhzunluğu, gecənin sükutu, fəzanın dərinliyi həp birər şeirdir. Əvət, hər ah, təbəssüm, hər inilti, hər fəryad, hər fırtına, hər girdab, birər şeirdir.

***

Çayların, ırmaqların ninnisi, dənizlərin, çağlayanların vəlvələsi; arslanların, yıldırımların gurlaması; xəfif rüzgarların zümzüməsi; yarpaqların,

çiçəklərin öpüşməsi; bülbüllərin, ishaqların ötüşməsi həp birər musiqidir. Vurğun gönüllərin acı təranəsi; mini-mini çocuqların tatlı qəhqəhəsi, körpə quzuların mələməsi həp birər musiqidir.

***

Ömür artdıqca həyatdakı nəşə də o nisbətdə əksilir; nəşə əksildikcə qeydi-həyat artar, qeyd artdıqca binlərcə sıqıntı-üzüntü insanı sarmağa başlar.

***

Şəriət insanların nicat və səadəti için yapılmış bir qanundur. Xalqı təhlikəli uçurumlara yuvarlayan bir qanun isə pək çürük və mənasız bir əfsanə deməkdir.

***

Dünyada gözəllik və məhəbbətdən tatlı nə ola bilir!?

Bəncə, bütün cihanı xilas edəcək iki qüvvət var, yalnız iki böyük qüvvət var; o da: gözəllik və məhəbbətdən ibarətdir.

***

Təməlsiz (əsassız) divar iki gün yaşar, üçüncü gün uçar, yıqılır, sahibini sevindirəcək yerdə büsbütün məhcub edər, kədərləndirər; son nəqamət isə heyhat... faidə verməz.

***

Elmi-iqtisad bilməyən bir tacir mənfəət yerinə zərər görür. Tarixi-ədyan, fəlsəfeyi-din bilməyən bir xoca hidayət, şəriət yerinə səfsətə, zəlalət toxumu saçar.

***

Elmi-ziraətdən başı çıqmayan bir mülkədar, yaxud əkinçi buğda əkərsə çavdar biçər, həndəsə bilməyən bir memar qübbə ilə uğlaşırkən divarları çatlamış bulur.

***

Təlim və tərbiyədən anlamayan bir müəllim tənviri-əfkar edəcək yerdə fəsadi-əxlaqa bais olur. Fəzilət yerinə rəzalət öyrədir, elm yerinə cəhalət törətmiş olur.

***

Məxluqatın ən şərəflisi olan insanların, hətta zəif, aciz bir qarıncanın belə qanına girmək, bəncə, əfv edilməz bir cinayətdir.

Həmcinsinə qıymaqdan, yaqıb-yıqmaqdan zevq alanlar, başqasının fəlakətində səadət arayanlar, birər adi cəlladdan başqa bir şey deyildir.

***

İnsanlar arasında ülfət ziyadələşdikcə, şübhəsiz, gönüldəki təəssürat və məhəbbət də o nisbətdə artmağa başlar.

***

Sağlam bir tərbiyəyə, sarsılmaz bir əxlaqa malik olan xanımların açıq gəzməsində hiç bir məhzur görəmiyorum.

***

Tariximizin ən şanlı qəhrəmanlarını, ən böyük dahilərini vücuda gətirən, əcəba qadınlar deyil də kimlərdir!?

***

Hər ümidsizlikdə bir ümid, hər qaranlıqda bir işıq yaşıyor, yalnız səbir və mətanət lazım.

***

Hər işdə səbir və mətanət lazım... Hissiyyata qapılıb da hər şey için məraq edənlər təhlükəni kəndi əlləri ilə dəvət etmiş olurlar.

***

Həşərat kibi yüzüstü süründükcə, əsla ağ gün görmiyəcəyiz. Həm də gündən-günə əzilib məhv olacağız.

***

Qadın pək körpə tazə bir çiçək, sonra şəfarətli bir kələbək; daha sonra füsunkar bir mələkdir.

***

Məhəbbət öylə bir alov ki, bir kərə insanın qəlbini sardımı ölüncəyə qadar sızlayıb durur...

***

...Həyatda qorqulacaq bir şey yoq... İnsanları qurtaracaq bir qüvvət varsa,o da cəsarət, yalnız bir cəsarətdir.

***

O hansı fəlsəfədir ki, daimi və sabit olsun? Dünyada hər şey dönüb dolaşır, biz də bərabər. Bütün həyat aqıb dəyişir, biz də içində.

***

Ailəmi-təbiətdə hər nəyə təsadüf etsək onun ən mükəmməl tarixini, ən gözəl nümünəsini məktəb sıralarında görə bilməz.

***

Ciddi müəllim pək böyük bir adamdır; əgər üsuli-təlimi və öz vəzifəsini bilirsə.

***

Maarif sevən adam hiç bir zaman cahil qalmaz, şübhəsiz, təhsil edib alim olmuş olur.

***

Əsərlər zəhərli, əxlaqsız, kefşək bir mövzu təqib edərsə, gec-tez bütün oxucularını da zəhərləmiş olar.

***

Bugünkü müharibədə toplar, tüfənglər deyil, hər məmləkətin ədəbiyyat və fəlsəfəsi ilə bəslənən beyinlər də ayrıca haizi-əhəmiyyətdir.

***

Bir millətin tərəqqi və tənəzzülünü bilmək üçün məktəblərini görmək kifayət edər.

***

Qadınsız bir məclis, gülsüz bahara, bülbülsüz çəmənzarə bənzər.

***

Əvət, həyat bir röya, insanlar da röyada parlayıb sönən kölgələrdir.

***

Vətən eşqi və vətən qurtuluşu hər şeydən yüksək və müqəddəsdir.

***

Vətən anadır. Bütün sevgilər ana məhəbbəti qarşısında sönük qalır.

***

Bəşəriyyəti hiç bir zaman göz yaşları qurtarmamışdır.

***

Ən parlaq gözəllər də yalnız qüvvətə qarşı əyilirlər.

***

Nifrətlə məhəbbət bir-birinin əksi olsa da, ifadə etdikləri məna birdir.

***

Bizə gülümsəyən hər bahar dəhşətli bir qışdan doğar.

***

Qaranlıq gecələr olmasaydı, gözləri oqşayan yıldızlar bunca sevilməzdi.

***

Arslanların saymazlığı şikarı tülkülərə qapdırar.

***

Cihan cənnət olsa, insanlar mələk,
Dağlar inci saçsa, dənizlər çiçək,
Güldürsə həp ağlar gözləri fələk,
Sağalmaz yarası məhzun gönlümün.
Dün gənc idim, bu gün oldum ixtiyar,
Hər zamanın bir hökmü, bir halı var;
Dün bir səfil idim, bu gün bəxtiyar,
Hər anın bir zevqi, bir məlalı var.

***

Bilməm atıb heyvanları,
Omuzlarda gəzmək niçin?

Şu zavallı insanları
Yük altında əzmək niçin?
Halbuli zənginlə yoqsul
Bir torpaqdan yaratılmış,
Bir sultanla, bir qul
Eyni çamurdan yapılmış.

***

Hey, qoca dünya, hey! Səndə nələr var!?
Hər gələn səni bir başqa şey sanır.
Kimi bir bataqlıq deyə xor baqar,
Kimi ifritədir deyə aldanır.
Kimi zindan deyə qızarkən sana,
Üstün dar gəlincə keçər altına.

***

Ağlanacaq bir hal idi
Özümüzdə görürdük,
Dilimizin, dinimizin
Getməsinə gülürdük.

***

İştə novruz! Yetişdi fəsli-bahar,
Gəldi işrət zamanı, qardaşlar!
Nə gözəl bayram... Ah nə xoş fürsət!
Sayılır əhli-zevqə bir nemət!

***

Bən mülayim bir dənizim,
Atəşlidir dalğalarım.
Sülhə qoşan bir acizim,
Əskik olmaz qavğalarım.

***

Sevinmə, gülmə, quzum, kimsənin fəlakətinə,
Bu hal, əvət, eyi bir şey deyil, sevinmə, saqın!
Sevinmə başqasının hali-pürsəfalətinə,
Toqunma qəlbinə bikəslərin, zavallıların

***

Aldan bir az, yazıq sana!.. Qəhr olduğun yetər,
Baq, aldanıb da, çırpınaraq zümreyi-bəşər
Daim qoşar ümidi-səadətlə bixəbər,
Daim xəyal içində yaşar, həm də bəxtiyar...

***

Hər levhə bir həqiqəti söylər təranədir,
Hər kölgə hissi oqşayacaq bir bəhanədir.
Dünya nədir? O, iştə fərəhnakü münkəsir,
Bir aşiyani-zevqü səfa, bir xərabəzar...

***

"El için ağlayan göz kor" olsa da,
İnanma, arqadaş! O, boş bir səda!
Xayır, xudkam olub sapma dar yola,
Hər el için ağla, el için sızla!

***

Hər günəşə vardım, ləkəli gördüm,
Hər vicdana girdim, kölgəli gördüm,
Parlaq imanları şübhəli gördüm,
Məgərsə hər cilvə bir xülya imiş.

***

Bir ölkə ki, səsi-ünü çıqmaya,
Haqsızlığa qarşı yumruq sıqmaya,
O bir məzarlıq ki, görənlər şaşar,
İçində həp canlı ölülər yaşar.

***

...Əvət, insan olursa insanlar,
Şübhəsiz, parlayıb da vicdanlar
Sevgi nurilə kainatı bəzər,
Buraqıb kini, qurt qoyunla gəzər.

***

Əvət, uzaqda səadət var, eşqə hörmət var,
Yaqın zəhərlidir, amma uzaqda cənnət var;
Uzaqda var əbədiyyət ki, başqa nemətdir.

***

Bəllidir insandakı xislət;
Sizlərdəki ülfət; sonu vəhşət,
Sizlərdəki şəfqət; sonu nifrət,
Sizlərdəki rəhmət; sonu lənət!..

***

Tanrı əmridir, əzizim,
Alim, cahil eşitməli.
İştə vəzifəmiz bizim:
Hər acıya səbr etməli...

***

Nerdə parlasa haq, şərəf, vicdan,
Eyilik, doğruluq, gözəllik, inan,
Orda var sevgi, orda var iman:
Orda var şübhəsiz, böyük Yaradan!

***

Sən nəsin? İştə bir avuc torpaq!
Baq, düşün! Kibri at, qüruru bıraq.
Əyri yoldan çəkil, fəsadı unut!
Əvət, ancaq düşün də haq yolu tut.

***

Hər nə zülm etdilər durub baqdıq,
Şimdi yoq səbrə ehtiyac... artıq
Çırpınır intiqam için könlüm,
Ya zəfər, haq və ya şərəfli ölüm!..

***

Şən, gözəl bir qadın azadə gərək!
Əldə gül qönçəsi ya badə gərək,

Hanki məclisdə ki, yoq cinsi-lətif,
Nəşədən zevq alamaz bir arif.

***

İzlərim göydəki yıldızları bən,
Lakin onlar pək uzaqdan daha şən,
Daha dilbər və gözəldir, bilsən,
Bizə yaqlaşdımı, bəsbəlli, yaqar.

***

Sən nə mələksin, nə də bir qaplansın:
Nə gülsün, nə dikən... yalnız insansın.
Çalış, parla, yüksəl! Unutma ancaq,
Yaşamaq bir haqsa, yaşatmaq da haq!..

***

Beş gün ömrün necə əfsanəsi var,
Eşqi var, badəsi, peymanəsi var.
Sonu həsrətlə bitərkən, əfsus,
Yenə dünya dolu pərvanəsi var.

***

Getdi,eyvah!.. O fəzilət, o zəka!
Əbədi susdu o qüdrət, o dəha...
Söndü bir anda o sönməz atəş,
Fərqi yoq, batsa da paralq o günəş!

***

İnsan ömrü dalğa kibi keçər, gedər,
Hər gələn bir sevgi yolu seçər, gedər.
Dərdi bıraq, zevqinə baq, unutma ki
Hər kəs əcəl badəsini içər, gedər.

***

İnsan bir gün dikən, bir gün çiçəkdir,
İnsan gah bir şeytan, gah bir mələkdir,
Fənalıq, eyilik bil nə deməkdir!

***

Gülsə günəş, gülsə çəmən, laləzar,
Sanma könüllərdə şətarət doğar,
Arif odur gülsün içindən bahar.

***

Keyfinə baq, sanki bu dünya nədir?
Məskəni olmuş ulu xaqanların,
Mədfənidir qorqulu sultanların.

***

Ölüm var ki, həyat qədər dəyərli,
Həyat var ki, ölümdən də zəhərli.

***

Həp sevgidir gözəlliyi insana sevdirən,
Mərhumi-eşq olunca gözəllik də can sıxır.

***

Mən gözəllərdə gözəl ruh araram,
Ruhu düşkünləri çirkin sanaram.

***

Xəyal içində bəşər daima səadət arar,
Həqiqətin üzü lakin gülümsəməz, ağlar.

***

Əyilməzkən mələk insana, olmuş aqibət şeytan,
Nədən seytana əbd olsun bu gün alinijad insan?

***

Dünyada varsa devləti-cavid, o eşqdir;
Olmaz sevib–sevilməyən ömründə bəxtiyar.

***

Fəzlü irfanla mücəhhəz olaraq
Cəhli yıq, qəfləti yaq, iczi biraq!

***

Kəssə  hər kim dökülən qan izini,
Qurtaran dahi odur yer yüzünü!

***

Xəyal içində bəşər daima səadət arar,
Həqiqətin üzü lakin gülümsəməz, ağlar.

***

Əyilməzkən mələk insana, olmuş aqibət şeytan,
Nədən seytana əbd olsun bu gün alinijad insan?

***

Dünyada varsa devləti-cavid, o eşqdir;
Olmaz sevib-sevilməyən ömründə bəxtiyar.

***

Fəzlü irfanla mücəhhəz olaraq
Cəhli yıq, qəfləti yaq, iczi biraq!

***

Ana evladını bəslər, böyütür,
Anasız millət, əvət, öksüzdür.

***

Kimsədən gözləmə yardım əsla!
Yalnız kəndinə kəndin ağla!

***

Aparır külək hər gün gülüstandan bir gülü,
Ürəyi dağlı, məhzun edir yazıq bülbülü

***

Bəllidir ay günəşdən ayrılmaz,
Günəş olmazsa, ay işıq salmaz.

***

Kim baqıb dursa bil ki, qeyb edəcək,
Ayaq altında məhv olub gedəcək...

***

Sürüsündən kənar olan qoyunu
Canavar parçalar, görüb də bunu.

***

Səni qurtarsa, qurtarır birlik,
Çünki birlikdədir fəqət dirlik!..
.

***

İnan ki, bir acı söz, bir baqış, bir incə gülüş
Kədərli, sırtmalı bir qəlbi fırmalar, yaralar.

***

Görmədim əsla dikənsiz gül, qaranlıqsız işıq,
Hər visalı daima təqib edər bir ayrılıq.

***

Yaşadan kainatı qüvvətdir,
Gücsüzün həp nəsibi zillətdir.

***

Əvət, acizlərin cəzası budur,
Kim ki, məzlum olursa, zalım odur!

***

Dünkü xəndan gönül bü gün sızlar,
Dün sönən bir əməl bu gün parlar.

***

Həp dəyişməkdədir bütün zilqət,
Həp dəyişməkdədir həyatü fünun.

***

Cihan bir qətlgah olmuş, aman yoq zülmü vəhşətdən,
Bu insan məzbəhindən kimsə çıqmaz, kimsə qurtulmaz.

***

Hürriyyət? Ah, o bəncə fəqət tatlı bir xəyal...
Dünyada varmı hürr, əcəba? İştə bir sual!...

***

Bən hiçim, hiçdən çıqan hiçdir fəqət,
Zənn edərsəm sizdə də yoq mə"rifət

***

İştə gönlüm bir yıqıq viranədir,
Hər nə söylərsəm bütün əfsanədir.

***

Göz-qulaq-görmək, eşitmək aləti,
Çoq zaman aldatmış insaniyyəti.

***

Bir oyuncaqdır cihan başdan-başa,
Qafil insanlar da bənzər sərxoşa.

***

Hər kəsin ruhunda bir xaliq gülər,
Öylə bir xaliq ki, xəlq etmiş bəşər.

***

Hər kəsə haq bir, tanrı bir...
Ya bu sərsəmlik, bu azğınlıq nədir?

***

Sorsalar: dünyada kimdir hökmdar?
Bən  derim: ölmüşlər, ölmüş duyğular.

***

...Gevşək, duyğusuz, boş bir beyin,
Sirri-xilqətdən nə anlar,söyləyin!?

***

Nuri-haq bir çöhrədir, daim gülər,
Dərkdən aciz fəqət biganələr.

***

Dərk edənlər mütləqa məczub olur,
Fərti-eşqindən həmən illət bulur.

***

Bə”zən əsla umulmayan yerdən
Nə qədər bəxtiyar olur insan!

***

Qadın! Ey möhtərəm ənisi-bəşər!
Sənsiz öksüz qalırdı hissi-bəşər!

***

Əvət, bu nəmli, işıqsız, bu kirli zindanlar
Yerim deyildi, fəqət kəndim ixtiyar etdim.

***

Xəyal!.. Əvət, yaşatan yalnız əhli-halı odur,
Yaşarsa bir gönül, az-çoq xəyal içində yaşar.

***

Eşqin atəşi var,
O hər hanki qəlbə düşsə yaqar.

***

Namus, vicdan insanlarda iki böyük qanatdır
Namus, vicdan bizlər için daimi bir həyatdır.

***

İş, fikir, dil birliyi, olmayınca,
Çətindir cihanda dirlik.

***

Bən mülayim bir dənizim,
Atəşlidir dalğalarım.

***

Bən əbədi hürriyyətin
Sevdalı bir cilvəsiyim

***

Bir əlim iştə su, atəş bir əlim,
Çarpacaq qəlbim, əgər sussa dilim.

***

Öylə quş var ki, yiyorlar ətini,
Quş var, ət ver də, duyar ləzzətini.

***

Bir tokat var, doyurur ac qarını,
Mərhəmət var ki, zəhərlər yarını.

***

Həp yalan sat da altın al, nə demək?!
Göz yaşından doğarmı huri, mələk.

***

Dəyişirkən, əvət bəşər qafası,
Dəyişir Tanrının da siması.

***

Zalım əllər nə qadar üstünsə,
Qurtuluş yoktur əzilmiş cinsə.

***

Ən fəlakətli böyük yanğınlar
Bir qıvılcımlı xətadan başlar.

***

Qanatım olsa uçardım da həmən.
Qurtulurdum bəşərin şərrindən.

***

Barışıb həp sevişsə millətlər,
Bəlkə azcıq susar şu vəhşətlər.

***

Həp əməkdən çıqıyorkən ətmək,
Böylə arsızca dilənmək nə demək?

***

Şərq uğraşır yalnız “ölməyim” deyə,
Qərb elləri maildir öldürməyə.

***

Çalış, parla. Yüksəl! Unutma ancaq,
Yaşamaq bir haqsa, yaşatmaq da haq!..

***

Yüzü dilbər, sözü dilbər pək çoq...
Özü dilbər gözəl az, bəlkə də yoq.

***

Ölüm var ki, həyat qadar dəyərli,
Həyat var ki, ölümdən də zəhərli...

***

Sevgidədir ancaq allah rizası,
Sevgisiz bir gönül şeytan yuvası

***

Hər dərd için şübhəsiz bir çarə var,
Bəsbəlli, hər qışı izlər bir bahar.

***

Yalnız deyil insanlara, vəhşilərə sorsan,
Onlar belə insandakı vəhşiliyə heyran.

***

İdraki sönük başçıların qəfləti ancaq
Etmiş, edəcək milləti həp əldə oyuncaq.

***

Tufana qılıcdan daha kəskin ulu qüvvət,
Yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət...

***

İştə xilqət dolu bin dürlü təzad.
Hər sevincin sonu müdhiş fəryad...

***

Hər qadın cilvəsi bir tatlı xəyal,
Başqa, pək başqadır onlardakı hal.

***

Qadın istərsə dikənlər gül açar,
Qızacaq olsa; ölüm, fitnə saçar.

***

Bir həqiqət deyə tapdıqlarımız
Yarın, əfsus, olacaq süslü yalan.

***

Göz yaşları versəydi nicat,
Bən də ağlar, üzülürdüm, heyhat...

***

Kin püskürən azğınlara yalnız,
Dəhşətli ölüm vardır amansız!..

***

Zalimlə məzlumu, saqın, bir tutma,
Yediyin ətməyi, duzu unutma!

***

Şən saraylar məğrur etməsin səni,
Düşün daim yoqsulların dərdini.

***

Gücsüz  tanrıdansa güclü qəhrəman
Səcdəyə, hürmətə layiq hər zaman

***

Sevgisiz yaşayan canlı bir məzar!
Sevərkən ölənlər daha bəxtiyar.

***

Dikbaşlar ansızın həp diz çökərlər,
Qaliblərə qarşı boyun bükərlər.

***

Məzlumlara qarşı duyğusuz qalan
Bir insandan daha şərəfli qaplan!..

***

Bir göyərçin əsir etdi qartalı,
Gözəllik namına, sevgi namına.

***

Xain qaçsa hər yana,
Qurtuluş yoqdur ona.

***

Zalim bağışlansa daha çoq azar,
Məzlum için qazar ən dərin məzar.

***

Əgər xain olsaydım, asla
Silahsız, ordusuz çıqmazdım yola.

***

Yaşamaqçın bana, mümkünsə əgər,
Bir əkin tarlası, bir bağça yetər.

***

Binlərcə şəhər ya qala almaqdan, əmin ol,
Bir sadə çoban könlünü almaq daha məqbul.

***

Bən təzad elçisiyim, hər qayğı,
Bana saçmaqda səadət işığı.

***

Bilməz yarının sirrini bir kimsə cihanda,
Baq zevqinə tale sana yar olduğu anda.

***

Suç deyildir bu günəşçin, yarasa
Ürkərək batsa qaranlıqda yaşa.

***

Bir nəfəsdir bu sürəksizcə həyat
Bir nəfəs!.. Getdimi? Gəlməz...

***

Yüksəl ki, yerin bu yer deyildir,
Dünyaya gəliş hünər deyildir.

***

Var mənim çoxluca gileyim səndən,
Bilməm nə şikayət eləyim səndən.

***

Könlünü könlüm kimi əgər edərsən,
Məndəki möhnəti sən dərk edərsən.

***

Hər qaranlıqda çırpınır bir nur,
Hər həqiqətdə bir xəyal uyuyur.

***

Hürriyyət öylə nazlı bir afət ki, pək vəqur,
Qan aqmadıqca kimsəyə gülməz o işvəkar.

***

Eşq əhli olmaz bəlasız.

***

Anlamaz dərd əhlini biganələr.

***

Fəlakətsiz səadət, qayğısız rahət deyil qabil.

***

Əmin ol, nerdə dirlik varsa, mütləq orda qavğa var.

***

Cihan bir nazənin dilbər ki, yalnız mərdə qismətdir...

***

Şərr olmadıqca xeyrə qavuşmaq məhal olur.

***

Çalış, öyrən, ara, bul, haqqını al!

***

İnsan olan cihanda nasıl sevgisiz yaşar!?

***

Məhrumi-eşq olunca gözəllik də can sıqar.

***

Dünyada varsa devləti-cavid, o eşqdir.

# Görkəmli şəxsiyyətlər Hüseyn Cavid haqqında

Hüseyn Cavid klassik milli ədəbiyyatın ənənələri ilə yeni dövrün bədii və fəlsəfi axtarışları arasında vəhdət yaradaraq, XX əsr Azərbaycan ədəbiyyatının inkişafında misilsiz rol oynamış qüdrətli sənətkarlardandır. Dünya romantizm poeziyası ilə qırılmaz tellərlə bağlı olan Hüseyn Cavid yaradıcılığı öz bədii estetik qaynağını Azərbaycan mədəniyyətinin dərin tarixi qatlarından alır.

***

Hüseyn Cavid XX əsrdə Azərbaycan ədəbiyyatının, mədəniyyətinin inkişaf etməsində misilsiz xidmətlər göstərmişdir.

Hüseyn Cavid Azərbaycan xalqını, onun mədəniyyətini, ədəbiyyatını, elmini yüksəklərə qaldıran böyük şəxsiyyətlərdən biridir.

Hüseyn Cavidin yaratdığı əsərlər Azərbaycan xalqının milli sərvətidir. Onlar bu gün üçün, gələcək nəsillər üçün dərslik kitabıdır.

Hüseyn Cavidin bütün yaradıcılığı, bütün fəaliyyəti Azərbaycan xalqının mədəniyyətini yüksəklərə qaldırmaqdan, xalqımızı azad, müstəqil xalq etməkdən ibarət olubdur. Onun bütün yaradıcılığı Azərbaycan xalqını milli azadlığa, müstəqilliyə çağırıbdır.

O, həmişə öz iradəsi ilə yaşamış, öz iradəsinə, millətinə sadiq olmuşdur, millətini, xalqını həddindən artıq sevmiş və millətinə həddindən artıq xidmət edən bir insan olmuşdur.

***

Böyük filosof-şairimiz, dramaturqumuz Hüseyn Cavid həbs olundu, uzun illər əsərləri qadağan edildi. Ancaq tarix hər şeyi öz yerinə qoydu. Hüseyn Cavidin cənazəsi də Sibirdən öz vətəninə gətirildi, onun adı da yüksəldi.

**Heydər Əliyev,**
*Ümummilli lider*

Hüseyn Cavid dərin fəlsəfi-estetik məzmuna malik yaradıcılığı ilə ədəbiyyatımızda yeni bir mərhələnin başlanğıcını qoymuşdur.

Sənətkarın dünya romantizm ənənələri zəminində bəşəriyyətin mənəvi həyatı ilə bağlı axtarışlarının ifadəsi olan lirik əsərləri, mənzum faciə və tarixi

dramları qiymətli söz inciləri kimi xalqımızın zəngin bədii fikir xəzinəsində layiqli yer tutur. Ölkəmizdə teatr mədəniyyətinin yüksək nailiyyətlər qazanmasında Cavid dramaturgiyası mühüm rol oynamışdır.

***

Azərbaycan poeziyasında fəlsəfi lirikanın təkrarsız nümunələrini yaradan Cavid ümumbəşəri problemləri humanizm mövqeyindən işıqlandıran mənzum faciələri və tarixi dramları ilə Azərbaycan dramaturgiyasında yeni bir mərhələ açmışdır.

***

...Hüseyn Cavid sənətkar şəxsiyyətinin bütövlüyünü əks etdirən ibrətamiz həyat yolu keçmişdir. Şairin cənazəsinin uzaq Sibirdən Vətənə gətirilməsi, məzarı üzərində məqbərənin ucaldılması totalitarizmin günahsız qurbanlarının rəmzinə çevrilmiş Cavidə və 1930-cu illərin repressiyalarına məruz qalmış minlərlə Azərbaycan ziyalısının xatirəsinə xalq ehtiramının təcəssümüdür.

**İlham Əliyev,**

*Azərbaycan Respublikasının Prezidenti*

H.Cavid gözəli, gözəlliyi, insanın saf, müqəddəs məhəbbətini yazmışdır. O, dünyada azadlığın və səadətin təntənəsini görmək istəmişdir.

“Cavid” sözü əbədi, ölməz deməkdir. Yazıb-yaratdığı yüksək bədii əsərlər Hüseyn Cavidin ömrünü həqiqətən əbədi etmişdir.

“Şeyx Sənan” müəllifi Hüseyn Cavid Azərbaycanın sovetləşdirilməsindən sonra bir çox mənzumələr yazır. Bunlardan mənsur “Topal Teymur” və mənzum “Peyğəmbər” sovet rəhbərlərini çox məşğul edir. Şairin bu iki əsəri oxuculara olduqca dərin təsir buraxır. Öncə oynanmasına icazə verilən “Topal Teymur” tamaşaçıları həyəcana gətirir. Əhali türklüyün ümumi qəhrəman tipi Teymurləngdən fövqəladə dərəcədə məmnun və coşğun olur. Məsələni sonradan başa düşən bolşeviklər pyesin göstərilməsini qadağan edirlər.

**Məhəmməd Əmin Rəsulzadə,**

*İctimai-siyasi xadim*

Hüseyn Cavid Stalin kimi bir dünya diktatoru qarşısında baş əymədi. Hətta həyatını qurtarmaq naminə öz əsərlərində onun adını bir dəfə də çəkmədi. Hamı neftdən, pambıqdan, kolxozdan yazan vaxt, o əqidəsini

dəyişməyərək, “Topal Teymur”u, “Peyğəmbər”i, “Səyavuş”u qələmə aldı. Qorxmadan gözlədiyi Sibir buzlaqlarındakı ölümüsə şirin bir Allahın neməti kimi qəbul etdi.

**Əbülfəz Elçibəy,**
*Dövlət xadimi*

Cavid incə ruhlu bir şair olmaqla bərabər türk dilini əruz vəzni ilə qarışdıran və bir-birindən ayrılmaz bir hala salan sənətkardır.

**Əli bəy Hüseynzadə,**
*Yazıçı, jurnalist*

İblis fənalıqların simvoludur. O, mənəviyyatı və yenilikləri inkar edən bir ruhdur. Vəzifəsi insanlardakı mənəvi qüvvələri söndürmək və maddi qüvvələri inkişaf etdirməkdir. Odur ki, Arifi iğva etmək, onun qəlbinə təsir edə bilmək üçün dürlü-dürlü planlar quruyor və onu insani əxlaq və yüksək duyğulardan uzaqlaşdırmağa, bataqlıqda adi və alçaq həyata sürükləməyə çalışıyor.

**Abdulla Şaiq,**
*Şair, dramaturq*

Hüseyn Cavid Azərbaycan xalqının Şekspiridir.

***

Cavid sənəti açarı qeyb olmuş xəzinədir.

**Mikayıl Müşfiq,**
*şair*

Caviddə su kimi duru, almas kimi saf, parlaq və oynaq bir lisan vardır ki, bu, islahın çalışan lisanımızın təkamül özülü ola biləcəkdir zənnindəyik. Zatən, bir millət üçün lisanı onun şairləri, ədibləri yaradırlar ki, Cavid də bu cəhətdən qiymətlidir. Caviddə hər kəsi məftun və əsir edəcək bir qüvvəyi-şeiriyyət vardır. Zatən əsərlərinin ən böyük gözəlliyi və qüvvəti də burasındadır...

**Cəfər Cabbarlı,**
*Əməkdar incəsənət xadimi, yazıçı, dramaturq*

Biz Hüseyn Cavid yaradıcılığından istifadə etmiş və edəcəyik. H. Cavid yaradıcılığında biz şairlər üçün öyrənməli şeirlər çoxdur.

**Səməd Vurğun,**
*Xalq şairi*

Hüseyn Cavid Azərbaycan ədəbiyyatında qüdrətli bir faciə ustası idi. Onun romantik qanadlı şeiri yüksək sənətkarlıq nümunəsi idi.

**Rəsul Rza,**
*Xalq şairi*

…Cavidin yaratdığı dil və üslubu haralardan alınır alınsın, nə kimi ilhamlardan doğur doğsun Azərbaycandakı şair və ədiblərimizə nisbətən ən müstəsna, ən zərif və narın bir dildir. Bu dilin gələcək nəslimizə təsiri olmamış olmaz… Bu da Cavidin Azərbaycan ədəbiyyatına ən böyük xidmətlərindən biri olacaqdır.

**Hənəfi Zeynallı,**
*Folklorşünas*

Səhnədə mütərəqqi fəlsəfi fikirlər, işıqlı Cavid humanizmi yüksək şeiriyyətlə üzvi surətdə birləşmiş şəkildə canlanır və tamaşaçıların mənəvi yüksəlişinə, nikbin ruhla, şüurun və insaniyyətin qələbəsinə möhkəm inamla teatrdan çıxmasına səbəb olur.

**Mirzə İbrahimov,**
*Xalq yazıçısı*

Bu gün Hüseyn Cavid Firdovsi dastanlarının bir parçasını öz bədii süzgəcindən keçirərək xaqanlar hakimiyyəti əleyhinə üsyan bayrağı qaldıran Çin məzlumlarının şərəfinə nəğmələr oxuyur.

**Mehdi Hüseyn,**
*Xalq yazıçısı*

Nizamidən və Füzulidən bu tərəfə bütün sənətkarları tərəzinin bir gözünə, Cavidi bir gözünə qoysan, Cavid ağır gələr.

**Mir Cəlal,**
*Əməkdar elm xadimi, ədəbiyyatşünas*

H.Cavid hər zaman təzədir. Bu təzəliyin başlıca mənbəyi şairin tərənnüm etdiyi fikirlərin dərinlik və vüsətində, toxunduğu mövzuların böyüklük və siqlətində, təbliğ etdiyi və əsaslandırdığı demokratik-humanist ideyaların parlaqlığındadır.

***

Cavid olduqca təvazökar, sözün müsbət mənasında insanı heyrətə gətirən bir qürura malik idi. O, insanlara dərin hörmət və məhəbbət bəslər, bununla yanaşı kimsədən asılı olmaq istəməzdi.

**Rza Təhmasib,**
*Xalq artisti, rejissor*

H.Cavid hər zaman təzədir. Bu təzəliyin başlıca mənbəyi şairin tərənnüm etdiyi fikirlərin dərinlik və vüsətində, toxunduğu mövzuların böyüklük və siqlətində, təbliğ etdiyi və əsaslandırdığı demokratik-humanist ideyaların parlaqlığındadır.

**Məsud Əlioğlu,**
*Filologiya elləri doktoru, yazıçı*

Hüseyn Cavid sənətimiz tarixinə əlvan, romantik bir səhifə yazmış şair və dramaturqdur. Azərbaycan ədəbiyyatında ilk dəfə mənzum pyeslər yaratmış Cavid uzun illər şüurlara, qəlblərə hakim kəsilmişdi... Günlərin, ayların, illərin üstündən addımlayan böyük sənətkarlarımızın həyatı əsrlər boyu davam edəcək.

**Anar,**
*Xalq yazıçısı*

Hüseyn Cavid gözəli, gözəlliyi, insanın saf, müqəddəs məhəbbətini yazmışdır. O, dünyada azadlığın və səadətin təntənəsini görmək istəmişdir.

“Cavid” sözü əbədi, ölməz deməkdir. Yazıb-yaratdığı yüksək bədii əsərlər Hüseyn Cavidin ömrünü həqiqətən əbədi etmişdir.

**Məmməd Rahim,**
*Xalq şairi*

Cavid əbədidir, qalacaq nami cahanda,
Məhv etdisə cəllad onu xəlqin nəzərindən,
Ölməz o böyük dahi, böyük bir gələcək var,
Övladi-vətən zövq alacaq hər əsərindən.

**Əliağa Vahid,**
Şair, qəzəlxan

Yaradıcılığının bütün dövrlərində mütərəqqi ideyalar carçısı olan, qələmilə həmişə insan hüquqlarını müdafiyə qalxan, sülh və əmin-amanlığı təbliğ edən böyük Cavid bu gün də həmin mübarizədə ölməz əsərləri ilə bizim səsimizə səs verir, işıqlı gələcəyə doğru bizimlə yanaşı addımlayır.

**Bəxtiyar Vahabzadə,**
Xalq şairi

...O elə bir “sübh şəfəqi” idi ki, işığı əsrlərin süzgəcindən süzülüb gəlir və həmişə də öz ilkin ehtirası ilə, ilkin şövqü ilə parıldayır. Əsrlər bir-birini əvəz edir, o işıq isə həmişə istedadı özünə çəkir. Çünki o işığı da istedad alovlandırıb.

**Elçin,**
*Xalq yazıçısı*

Mən Hüseyn Cavid istedadında, Hüseyn Cavid qabiliyyətində ikinci bir şair tanımıram.

**Seyid Şuşinski,**
*Xalq artisti, xanəndə*

Cavidin mənzum pyeslərinin tamaşalarına dəfələrlə baxmaqdan daima həzz alırdıq, qəhrəmanlarının sonralar aforizm, xalq misallarına çevrilən

monoloq və dialoqlarını əzbər bilirdik. Abbas Mirzə Şərifzadənin, Kazım Ziyanın, Sidqi Ruhullanın, Möhsün Sənaninin, İsmayıl Hidayətzadənin parlaq ifasında gördüyümüz Cavid qəhrəmanlarının monoloqları dilimizin əzbəri idi.

**Şəmsi Bədəlbəyli,**
*Xalq artisti, rejissor*

H.Cavidin hər şeyə qalib gələn məhəbbət və dostluq hisslərilə aşılanmış aktiv mübarizə humanizmi mənim üçün xüsusilə mənalıdır.

**Fikrət Əmirov,**
*Xalq artisti, bəstəkar*

Cavid Şərqin və Qərbin dahi sənətkarlarından Dantenin “İlahi komediyası”nı, Hötenin “Faust”unu, Tolstoyun əsərlərini, Sədinin, Hafizin, Xəyyamın şeirlərini çox sevirdi. Müəllimi Rza Tofiqi hörmətlə xatırlayırdı. Filosoflardan Spinozanı, Spenseri çox oxumuşdu.

**Mirmehdi Seyidzadə,**
*Əməkdar incəsənət xadimi, şair, dramaturq*

Hüseyn Cavid təmiz və kamil bir üsluba malikdir.

**Mehmet Fuat Köprülü,**
*Türkoloq, siyasi xadim*

“Xəyyam” tamaşası sənətimizin növbəti nailiyyətidir. Bu nailiyyət sevimli teatrımızın son dövr həyatında nəzərə çarpan canlanmanın gözəl bir rəmzidir.

**Məmməd Arif,**
*Əməkdar elm xadimi, ədəbiyyatşünas*

Son dərəcə ziddiyyətli, son dərəcə mürəkkəb bir həyat və yaradıcılıq yolu keçən Cavidin ilham pərisi daim həqiqət eşqi ilə qanad çalmış, həqiqət eşqi ilə alovlanıb yanmışdır...

Bütün böyük başqa sənətkarlar kimi H.Cavid üçün də həqiqətin ancaq bircə mənası vardır ki, bu da öz dogma xalqını azad, xoşbəxt və mədəni görmək, ana Vətənə xidmət etmək arzusudur.

**Abbas Zamanov,**
*Əməkdar elm xadimi, ədəbiyyatşünas*

Hüseyn Cavid təqribən 30 il davam etmiş yaradıcılığı ilə Azərbaycan ədəbiyyatını həm məzmun, həm də janrca zənginləşdirmiş qüdrətli şair-dramaturqdur. Onun əsərləri ilə ədəbiyyatımızın mövzular aləmi xeyli vüsətlənmiş, dramaturgiyamıza yüksək bəşəri konfliktlər, dərin düşüncəli, həssas ürəkli, böyük ehtiraslı parlaq xarakterlər gəlmişdir. “Ana”, “Şeyx Sənan” və “İblis” əsərləri ilə Cavid Azərbaycanda mənzum faciə janrının əsasını qoymuşdur.

**Bəkir Nəbiyev,**
*Ədəbiyyatşünas*

H.Cavid Azərbaycan ədəbiyyatı tarixində xüsusi movqeyi olan qüdrətli söz ustalarından biridir. Onun sənəti məzmunca yüksək olduğu kimi bədii forma cəhətindən də zəngin, əlvandır. Novator lirik şeirlər, lirik, epik poemalar yazmaqla yanaşı, Cavid Azərbaycan sənətinə faciə və dramlardan ibarət beş əsər vermişdir. Cavid dramaturgiyası sözün həqiqi mənasında xarakterlər dramaturgiyasıdır. Bu baxımdan onun dram sənətkarlığını ancaq dünyanın ən böyük dramaturqları ilə müqayisə etmək olar.

**Məmməd Cəfər Cəfərov,**
*Akademik*

Heyrətli bir aləmdir Hüseyn Cavidin poeziyası,dramaturgiyası! Təzadlarla dolu, münaqişəli, mubarizəli bir aləm!..

**...**O, əbədiyyətdə yenilik əlamətlərini, yenilikdə əbədiyyətin, Cavidliyin nişanələrini görür. Görür və göstərir. Cavid cavidani sənətkardır.

***

...Hüseyn Cavid

Elə adlar vardır ki, onları eşidəndə təqdim və tərif gərək olmur. Onlar nə

əlavə izahata, nə köməkçi bir əlamətə, nə də fəxri ada, nişana, təmtəraqlı ünvana möhtac görünmürlər.

Belə adların, bu cür adamların şöhrəti təbii, hörməti qanuni olur. Belə şəxsiyyətlərin qazandıqları məhəbbət sonsuz, etimad isə misilsizdir. Onlara qarşı xalqın rəğbəti az qala pərəstiş rəsminə çevrilir. Onların yazdıqları, dedikləri insanı saflaşdıran, ucaldan, nəcibləşdirən təsir və təlqin qüvvəsi kəsb edir.

**Mehdi Məmmədov,**
*Xalq artisti, aktyor, pedaqoq*

Hələ tarix Cavidə əl vurmayıbdır, şairimiz bir tərəfdə oturub əsərlərini yazır. Tarix isə qulaq asır və gözləyir. Şəksiz ki, tarix vaxtında onu sənət mühakiməsinə alacaq, təbiətin ona verdiyi qüdrət və istedadın hesabını istəyəcəkdir.

**Əziz Şərif,**
*Əməkdar elm xadimi, ədəbiyyatşünas*

Hüseyn Cavid bir dramaturq kimi, özünə qarşı çox tələbkar idi. Yazmış olduğu əsərləri uzun zaman ortaya çıxarmazdı. Ancaq əsər ortaya çıxandan sonra onun bir misrasını da dəyişdirməyə qoymazdı.

**Əli Zeynalov,**
*Xalq artisti, aktyor*

Cavid tariximizdə həmişə yaşayacaq bir insandır… Cavid diri, canlı deməkdir. O, bizim hər birimizdən çox yaşayacaq, canlı olacaq bir insandır.Ona görə də mən Cavidə – bütün əsərləri, varlığı, ruhu ilə yaşayan Cavidə bir daha “yaşasın” deyirəm.…Sözümüzdə, düşüncəmizdə Cavidin yeri çox ucadır. Cavid Azərbaycan insanı üçün örnək olan bir şəxsiyyətdir. Cavid, onun yaradıcılığı da, şəxsiyyəti də hər bir azərbaycanlı üçün gərək nümunə olsun. Cavid yenilməzliyin bir simvoludur.

**Rafael Hüseynov,**
*Akademik*

“Xoşa gəlmək” üçün yazmadığı üçündür ki, Cavidin əsərləri, həmişə, hər yerdə xoşa gəlmişdir.

***

Mən 60 ildir ki, Cavid əsərlərinin təsiri altında yaşayıram. Hər dəfə onun əsərlərini oxuyarkən Sənanın Xumara dediyi:

Məni xatırlayıb da gəlmişsən,
Görünür bivəfa deyilmişsən!

– sözlərindəki lətafəti duyur, ətrini alıram...

**Qulam Məmmədli,**
*Əməkdar mədəniyyət işçisi, jurnalist, teatrşünas, publisist*

Mənə elə gəlir ki, müəllimə xas olan bütün xüsusiyyətlər sanki Hüseyn Caviddə cəmləşmişdi. Bu onu ideal pedaqoq səviyyəsinə qaldırırdı. Biliyinə gəldikdə, necə deyərlər, dərya idi. Unudulmaz müəllimim böyük sənətkarlardan elə danışardı ki, sanki bizi ovsunlayardı. Danışığında ardıcıllığa, səlistliyə, məntiqliliyə həmişə diqqət yetirərdi.

**Adil İsgəndərov,**
*Xalq artisti, rejissor*

Azerbaycan halkı ve Azerbaycan edebiyatı yaşadıkça Cavit de Azerbaycan edebiyyatının değerli bir mümessili olarak yaşayacaktır.

**Mustafa Hakkı Türkekul,**
*Ədəbiyyatşünas*

Cavidin yaradıcılığı ona görə ziddiyyətli və ziqzaqlıdır ki, bir tərəfdən, onun yetişdiyi və yaradıcılığa başladığı dövrün özü ziddiyyətli idi, digər tərəfdən, Cavidin uşaqlıq və gəncliyi müxtəlif bir-birinə zidd mədəni təsirləri özündə birləşdirən bir mühitdə keçmişdir.

**Əkbər Ağayev,**
*Ədəbiyyatşünas*

Hüseyn Cavid xalqımızın şeir, sənət timsalıdır və o, azadlıq məfkurəsi yolunda şəhid olan millət qəhrəmanıdır.

**Cavad Heyət,**
*“Varlıq” jurnalının təsisçisi,*
*cərrah-alim, professor*

"İblis" əsərində Cavidin müharibələr əleyhinə humanist mütəfəkkir ideyaları ilə yanaşı, insan zəiflikləri qarşısında diz çökməmək çağırışı qiymətlidir. Cavid sübut etmək istəyir ki, həyatda xoşbəxt yaşamaq üçün onun çətinliklərini aradan qaldırmaq lazımdır, cəmiyyətdəki ədalətsizliklərə qarşı mübarizə etməmək zəiflikdir və bu zəiflik insanları hər bir cinayətə sövq edə bilər.

**Timuçin Əfəndiyev,**
*Ədəbiyatşünas və sənətşünas*

Hüseyn Cavid Azərbaycan poeziyasına Şeyx Sənan məhəbbəti, Səyavuş cəsarəti, Xəyyam müdrikliyi, peyğəmbər uzaqgörənliyi gətirmişdir.

**Hüseyn İbrahimov,**
*Xalq Yazıçısı*

XX əsrdə Şərqdə ictimai-milli ideal uğrunda mübarizələrin və romantik bədii fikir inqilabının, "Asiyanın oyanması"nın dünyaya özü ilə gətirdiyi böyük şairlərdən biri Hüseyn Caviddir. Əbdülhəq Hamid, Tofiq Fikrət və Məhəmməd Hadi ilə birlikdə o, Yaxın Şərqdə yeni inqilabi və fəlsəfi şeiri – "Şərq romantizmi"ni yaradanlardan biridir.

**Yaşar Qarayev,**
*Ədəbiyyatşünas*

İnsan Cavid sənətində böyük dramatik bir varlıqdır, bu varlığın daxilində xeyir və şər, nəfs və ideal, müharibə və sülh, qılınc və qələm arasında mübarizə gedir.

**Şamil Salmanov,**
*Ədəbiyyatşünas*

Cavidin dinə münasibəti ateist münasibət deyildir.

**Vəli Osmanlı,**
*Ədəbiyyatşünas*

Cavid kimi yazıçıları yersiz hücumlarla həyatdan uzaqlaşdırmaq yox, əksinə onların proletar inqilabı cəbhəsinə keçməsinə kömək etmək lazımdır. Cavid müasir həyatın böyük məsələləri, möhtəşəm vəzifələri ilə yaşamalıdır.

**Mustafa Quliyev,**
*Ədəbiyyatşünas*

Şair və teatr özü-özlüyündə bir problemdir ki, səhnə sənətinə yeni keyfiyyət gətirir. Azərbaycanda poetik teatrın banisi Caviddir.

...Cavid yaradıcılığı teatrla üzvi surətdə bağlıdır və Cavidin şübhəsiz, öz teatrı vardır. Cavidi teatrsız, teatrı Cavidsiz düşünmək olmaz.

**Cəfər Cəfərov,**
*Əməkdar incəsənət xadimi, teatrşünas*

Məşhur Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidin indi də Azərbaycan səhnəsində müvəffəqiyyətlə göstərilən romantik “Şeyx Sənan” faciəsi məhz milli zəmin üzərində yüksəlib, nəcib insanpərvərlik ideyalarını təbliğ edən əsərlərə nümunə ola bilər.

**Georgi Leonidze,**
*Gürcüstanın Xalq şairi*

Həyat həqiqəti ilə arzu və xəyallar asındakı ziddiyyət onun dram əsərlərinin hərəkətverici qüvvəsidir. Buna gorə də H.Cavid müstəsna hadisə, müstəsna hərəkətlər, müstəsna xarakter, müstəsna fabulalar yaradır.

H.Cavid original təbiətə malik bir şair idi. Onun bir misrasını silmək, başqa bir misra ilə əvəz etmək mümkün deyildi, hətta dilinin imlasını dəyişdirmək belə böyük cəsarət tələb edirdi.

***

XX əsr Azərbaycan ədəbiyyatında iki böyük romantik mütəfəkkir şair yaşamışdır: Məhəmməd Hadi və Hüseyn Cavid.

**Əli Sultanlı,**
*Ədəbiyyatşünas*

Cavidin şerinə və sənətkarlığına məftun tək mən deyildim, məndən də çox Mikayıl Müşfiq ona məftun idi …Hüseyn Cavid böyük həqiqətlər şairi idi.

**Əkrəm Cəfər,**
*Ədəbiyyatşünas*

Fransız Bodlerin Albatrosu yerdə yaşaya bilmədiyi kimi, Azərbaycan şairi Cavidin də ilham pərisi mövcud olmaq üçün bütün mənalarda səmaya, hüdudsuzluğa yönəldi.

**Azər Turan,**
*Əməkdar mədəniyyət işçisi, tənqidçi, publisist*

Cavidi tənqid üçün ikinci bir Cavid lazımdır ki, o da bizdə yox kimidir.

**İsmayıl Həqqi,**
*Aktyor*

Ümid edirəm ki, Cavid gələcək, yaralı ürəyimə təsəlli verəcək. Göz yaşımı siləcək. Keçirdiyim günlərimi qələmə alacaq…

**Müşkinaz Cavid,**
*Hüseyn Cavidin həyat yoldaşı*

Atamı yaxşı xatırlayıram. Onun bəzi xüsusiyyətləri, hərəkətləri, rəftarı aradan uzun illər keçməsinə baxmayaraq indi də mənim xatirimdədir. O, ailədə çox həssas, qayğıkeş, mülayim, xoşrəftar idi. İşlədiyi əsərlər üzərində adətən gecələr və səhər tezdən işləyirdi. O, təxminən gecə saat üçə qədər işlədikdən sonra bir qədər yatar, sonra dan ağarmamış səhər saat yeddiyə qədər işləyirdi. Buna görə də qardaşımı və məni məktəbə o yola salardı. Biz oyananadək artıq çayımız, yeməyimiz hazır olardı. Anamın səhər tezdən oyanıb bizi yola salmasına heç razı olmazdı.

***

Təəssüf ki, Cavid əsərlərinin bu mükəmməl nəşrini görmək onun böyük təəssübkeşi Heydər Əlirza oğluna nəsib olmadı. Hər şeyə görə – atamı Vətən

torpağına qovuşdurduğuna, əzizlərimi bir sərdabədə – Cavid məqbərəsində görüşdürdüyünə, Cavid ocağının çırağını yenidən yandırdığına… və nəhayət, Cavid külliyyatının bu mükəmməl nəşri üçün sərəncam verdiyinə görə unudulmaz Heydər Əliyevə Tanrıdan rəhmətlər diləyirəm.

**Turan Cavid,**
*Hüseyn Cavidin qızı*

Babam Hüseyn Cavid bir günəş idi. Yüksəldi, parladı, yarasaların gözünü kor etdi. Lakin dumanlar onun qarşısını aldılar.

**Ərtoğrol Cavid,**
*Hüseyn Cavidin oğlu*

Cavid poeziyası gənclik illərindən bizi valeh etmiş, həyatımıza, mənəvi aləmimizə daxil olmuşdu. Onun "Şeyx Sənan", "İblis" kimi əsərlərindəki bir çox beytləri, aforistik ifadələri dilimizin əzbəri idi. Cavid beytləri bizim qulağımızda romantik bir musiqi kimi, himn kimi səslənirdi.

**Dilşad Mehdiyeva,**
*H.Cavidin tələbəsi, həkim*

# I HİSSƏ

# ƏSƏRLƏRİ

## 1.1. Kitabları

### 1913

**1. Ana**: bir pərdəli dram /Hüseyn Cavid.– Tiflis: Gürcü şirkəti, 1913.– 46 s.

Ədibin ilk dram əsəri olan “Ana” mənzum faciəsinin mövzusu Dağıstan həyatından alınmışdır. Əsərin əsas qəhrəmanı qonaqpərvər və məğrur Səlma Azərbaycan ədəbiyyatı üçün yeni tipli Ana obrazıdır. Onun İsmət adlı bir çərkəz qızına nişanlı olan oğlu Qanpoladla bu qıza könül salan Orxan arasında rəqabət vardır. Orxan dostu Muradın vasitəsilə Qanpoladı öldürtdürür. Murad təhlükədən xilas olmaq üçün kimliyini bilmədən Səlma xanımın – Ananın evində sığınmaq istəyir. Oğlunun qatilini evindən uzaqlaşdırmaqla cəzalandıran Ana bu acı, qanlı taleyin səbəbini Allahın qisməti ilə əlaqələndirir.

**2. Keçmiş günlər**: şeirlər məcmuəsi /Hüseyn Cavid.– Tiflis: Şərq mətbəəsi, 1913.– 24 s.

***Kitabın içindəkilər:*** Hübuti Adəm; Bakıda; Yadi-mazi; Otuz yaşında; Gecəydi...; Bir rəsm qarşısında; Elmi-bəşər; Qadın!; Küçük sərsəri; Öksüz Ənvər; İlk bahar; Qız məktəbində; Çiçək sevgisi.

### 1917

**3. Bahar şəbnəmləri:** şeirlər toplusu /Hüseyn Cavid.– Bakı: “Açıq söz”, 1917.– 83 s.

**4. Maral:** [Pyes] /Hüseyn Cavid.– Bakı: “Açıq söz”, 1917.– 65 s.

“Maral” əsəri Azərbaycan ədəbiyyatında qadın hüquqsuzluğu mövzusunda yazılmış ilk faciədir. Pyesdə özündən xeyli yaşlı olan Turxan bəyə ərə verilən Maral müsəlman qadınının hüquqsuzluğu ilə barışmaq istəmir, öz ürəyinin səsi ilə hərəkət etmək qərarına gəlir. Amma Maralda bu, yalnız arzu şəklindədir və lazım gəldikdə o, kifayət qədər qətiyyət göstərə bilmir. Milli əxlaq normalarının qoyduğu tabular Maralın azadlığa və sərbəstliyə doğru gedən yolunu amansızlıqla kəsir, onu fiziki məhvə məhkum edir.

Əsərdə qadın azadlığı (Humay və Maralın mürəkkəb xarakterləri

timsalında), feodal-burjua düşüncə tərzinin naqis tərəfləri, cəmiyyətdə yenilik duyğuları (Cəmil bəy) ilə mühafizəkar köhnəlik (Turxan bəy) arasındakı barışmaz mübarizənin reallıqları dramaturji konfliktin mərkəzində durur.

**5. Şeyda:** [Pyes] /Hüseyn Cavid.– Bakı: "Açıq söz" qəzetinin mətbəəsi, 1917.– 80 s.

Dram əsərində həm cəmiyyətin sosial ziddiyyətləri, həm də ayrı- ayrı fərdlərin dünyagörüşlərindəki, mənəviyyatlarındakı təzadlar konfliktin özəyini təşkil edir.

